

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 fevral
2026-cı il,
cümə axşamı
№ 032 (7099)
Qiymәti
60 qəpik





## Azərbaycan Prezidenti ABŞ-da...

Bax səh. 2

# Bakının yeni nizam kodu: sülh, suverenlik və strateji dəhlizlər



Bax səh. 3

## Dünya Liderləri Vaşiqtona toplaşır...

Bax səh. 2

## Xalqımıza qarşı cinayət törədənlərin cəzası...

Ermənistan 30 ilə yaxın müddət ərzindəki işğal siyasətində azərbaycanlılara qarşı çoxsaylı cinayətlər törədib. Hərbi və müharibə cinayətlərinin bəşəriyyətə qarşı yönəlməsinə baxmayaraq, beynəlxalq birlik ermənilərin cinayətlərinə qarşı susqunluq nümayiş etdirib. Halbuki Azərbaycan bu cinayətlər barədə beynəlxaq ictimaiyyəti daim məlumatlandırıb. Dünya birliyi Ermənistanın işğalçılıq siyasəti ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrası üçün heç bir addım atmadı, həmin sənədlər 27 il kağız üzərində qaldı. Belə olan halda, dövlətimiz BMT Nizamnaməsinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında isə Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində erməni separatçılarının kökü kəsildi.

Azərbaycan o ölkələrdəndir ki, həm öz ərazi bütövlüyünü və tam suverenliyini öz gücü ilə...

Bax səh. 4

## Rəqəmsal iqtisadiyyat ekosistemi formalaşdırılır



Bax səh. 5

## Dünya müstəmləkəçilikdən xilas olmalıdır!

Müstəmləkəşilik keçmişin ən eybəcər qalıqlarından biridir. Onun təməlində istismar, təbii sərvətlərin talanması, insan ləyaqətinin alçaldılması, qul əməyi, cinsi zorakılıq, milli-dini kimliyin inkar edilməsi kimi amillər dayanır. Təəssüf doğuran haldır ki, Avropanın demokratiyanı, insan haqlarını, bərabərliyi, qardaşlığı özləri üçün şüar seçmiş yüksək inkişaf səviyyəsinə malik ayrı-ayrı ölkələri hələ də bu kimi eybəcərlikləri özündə birləşdirən müstəmləkəçilik siyasətindən əl çəkmək istəmir və onu müxtəlif adlar altında davam etdirməyə çalışırlar.

Ancaq artıq XXI əsrdir, internet dövrüdür. İnsanların azadlıq arzularını boğmaq getdikcə çətinləşir. Dünyada müstəmləkəçiliyə qarşı güclü hərəkatın başladığı müşahidə olunur. Ölkələr, xalqlar getdikcə daha qətiyyətlə öz hüquqlarını tələb edirlər və müstəqillik uğrunda mübarizəyə qalxırlar. Yaxşı haldır ki, genişlənən və dönməz hal alan bu hərəkata beynəlxalq dəstək də artır.

Dünyada dekolonizasiya prosesini sürətləndirməyə növbəti çağırış Birləşmiş Millətlər Təşkilatından (BMT) gəlib...

Bax səh. 6

## Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi

Körfəz Əməkdaşlığı Şurasında və Ərəb Dövlətləri Liqasında aparıcı lider dövlətlərdən biri olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Azərbaycan arasında dərin hörmət və sıx dostluğa əsaslanan münasibətlər son illərdə inkişaf edərək bütün sahələrdə irəliləməkdədir. Ali və yüksək səviyyədə səfər mübadilələri və qarşılıqlı təmaslar, eləcə də beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, aktiv parlament diplomatiyası və müxtəlif sahələrdə dinamik fəaliyyət Bakı-Əbu-Dabi əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə qalxmasına gətirib çıxarıb.

Son dövrlərdə BƏƏ-nin hökumət nümayəndələrinin və dünya miqyaslı nəhəng korporosiayalarının, iş adamlarının Azərbaycana intensiv xarakter alan səfərləri Bakı-Əbu-Dabi əlaqələrinin strateji tərəfdaşlığının nümunəsi olmaqla, ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapıların açılmasını təşviq edir. Müasir iqtisadi gündəliyin geniş və çoxşaxəli istiqamətləri müəyyənləşir. Əgər bir neçə il qədər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib...

Bax səh. 5

## Cenevrə görüşləri başa çatdı...

## ABŞ-İran danışıqlarının “Cenevrə mərhələsi”



Bax səh. 7

# Xalq şairi Nəriman Həsənzadəyə



Hörmətli Nəriman Həsənzadə!

Sizi - müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 95 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı arzulayırıq.

Siz milli ədəbiyyatın çoxəsrlik parlaq ənənələrinə sadiq qalaraq, özünəməxsus ifadə tərzi və dəst-xəttinizlə xalqımızın poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmiş söz ustasısınız. Ötən əsrin 50-ci illərində poeziya aləminə qədəm qoyduğunuz ilk vaxtlardan ədəbiyyatımıza yeni nəfəs gətirərək, geniş oxucu auditoriyasının xüsusi rəğbətini qazanmısınız.

Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən əsərləriniz Sizi həmişə ədəbi prosesin ön mövqelərində saxlamışdır. Həzinliyi və səmimiliyi, dil səlisliyi, axıcılığı və təbiiliyi ilə seçilən şeirlərinizdə müasirlərimizin hiss və düşüncələri öz dolğun bədii ifadəsini tapmışdır. Xalqın yaddaşının poeziyadakı əksi olan poema və mənzum pyeslərinizdə keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətləri tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik ruhunda canlandırmısınız. Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur.

Ədəbi şəxsiyyətinizlə vəhdətdə alim, pedaqoq və ictimai xadim kimi səmərəli fəaliyyətiniz Vətənə və xalqa ləyaqətlə xidmətin bariz nümunəsidir.

İnanırıq ki, milli məfkurəyə sədaqət və mənəvi saflıq aşılayan yaradıcılığınız gənc nəslin milli mənlik şüurunun formalaşmasında bundan sonra da əhəmiyyətli rol oynayacaqdır.

Ən xoş arzularla,

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Bakı şəhəri, 18 fevral 2026-cı il

# N.Ə.Həsənzadənin “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə “Heydər Əliyev” ordeni ilə təltif edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**18 fevral 2026-cı il**



# Azərbaycan Prezidenti ABŞ-da...

## Amerika İsrail İctimai Əlaqələr Komitəsinin icraçı direktoru və digər rəhbər heyəti ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdədir.

AZƏRTAC xəbər verir ki, fevralın 18-də dövlətimizin başçısı Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüşüb.

Söhbət zamanı Amerika İsrail İctimai Əlaqələr Komitəsinin nümayəndə heyətinin ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Azərbaycanda bütün dinlərin və mədəniyyətlərin nümayəndələrinin bir ailə kimi sülh və mehribanlıq şəraitində yaşadıqlarını, bunun dünya üçün nümunə olduğunu deyən Elliot Brandt ölkəmizdə yəhudi icmasına dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.



Dövlətimizin başçısı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu harmoniya şəraitində yaşadıqlarını vurğuladı, tolerant mühitin ölkəmiz üçün tarixən həyat tərzi olduğunu dedi.

Görüşdə Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə qlobal səviyyədə verdiyi töhfələr yüksək qiymətləndirildi.

Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunuldu, Donald Trampın hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi vurğulandı.

Bir müddət əvvəl Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə uğurlu səfərinə və “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Bu Xartiyada ölkələrimiz arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, süni intellekt və rəqəmsal transformasiya məsələlərinin də prioritet istiqamətlər kimi müəyyən edildiyi qeyd olundu.

Amerika İsrail İctimai Əlaqələr Komitəsinin Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsində rolu vurğulandı.

Görüşdə ölkəmizlə bu təşkilat arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Dünya Liderləri Vaşiqtona toplaşır...

## Sülh Şurasının ilk iclasında qlobal təhlükəsizliyin təmini istiqamətində əsaslı addımlar atılacaq




**İlham Əliyev: Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı “kim güclüdür, o da haqlıdır” anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir.**

Xəbər verildiyi kimi, bu gün ABŞ lideri Donald Tramp tərəfindən yaradılan Sülh Şurasının Vaşinqtonda ilk iclası keçiriləcək. İclasda Qəzza sektorunun bərpası üçün 5 milyard dollardan çox vəsait ayrılacağı açıqlanıb. Qeyd edək ki, bu platforma Yaxın Şərqdə sabitliyi bərpa etmək məqsədi daşıyır. Təsis sənədi ABŞ, Azərbaycan, Ermənistan, Argentina, Bolqarıstan, Macarıstan, İndoneziya, İordaniya, Qazaxıstan, Pakistan, Qətər, Səudiyyə Ərəbistanı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan və başqa ölkələr tərəfindən imzalanıb. Yayılan xəbərlərə görə, iclas zamanı Qəzza üzrə atəşkəsin ikinci mərhələsinin ilkin nəticələri müzakirə olunacaq və anklavın bərpası üçün maliyyə toplama planları irəli sürüləcək. BMT Təhlükəsizlik Şurası yeni orqanı atəşkəsin yerinə yetirilməsini izləmək, yeni hökumətin formalaşdırılması və Qəzza bölgəsinin bərpası üzrə işləmək üçün səlahiyyətləndirib.

Qeyd edək ki, hələ bir ay öncə Prezident Tramp yeni strukturdan qlobal sülhə nail olmaq üçün istifadə olunacağına ümidvar olduğunu bildirmişdi. O imzalama mərasimində “inanıram ki, Sülh Şurasının burada toplaşan insanlarla, Birləşmiş Millətlər Təşkilatı ilə birləşməsi dünya üçün - təkcə ABŞ üçün deyil, bütün dünya üçün həqiqətən unikal bir şey ola bilər”, - deyə bildirmişdi. Tramp həmçinin yeni təşkilata şəxsən rəhbərlik etdiyini açıqlamışdı. Onun rəhbərlik etdiyi komandaya, həmçinin Dövlət katibi Marko Rubio, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff, Cared Kuşner, Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyer və başqaları daxildir.

**Yeni dövrün sülh platforması...**

Qeyd edək ki, yanvar ayında təsis edilən Sülh Şurasının ilk iclasının keçirilməsi həm institusional baxımdan, həm də ideoloji müstəvidə mühüm hadisə kimi qiymətləndirilə bilər. Yeni yaradılan bu platforma qlobal miqyasda artan geosiyasi gərginliklər, regional münaqişələr və təhlükəsizlik arxitekturasında baş verən transformasiyalar fonunda xüsusi aktuallıq kəsb edir. Müasir beynəlxalq münasibətlər sistemində sülhün əldə olunması qədər onun qorunması və davamlı mexanizmlərlə təmin edilməsi də prioritet məsələdir. Sülh Şurası məhz bu boşluğu doldurmağa iddialı olan bir təşəbbüs kimi çıxış edir.

Qurumun perspektivi, ilk növbədə, onun fəaliyyət fəlsəfəsinə söykənir - Şura praktik təşəbbüslər irəli sürməklə, dialoq mexanizmləri yaratmaqla və etimad quruculuğu tədbirlərini təşviq etməklə qlobal mühitdə vacib stabilləşdirici institut kimi formalaşa bilər. Bu isə onun beynəlxalq sülh gündəliyində real təsir gücünə malik olmasını təmin edəcək. Bu baxımdan hətta Sülh Şurası dövlətlər, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutları arasında körpü rolunu oynaya bilər. Çünki müasir dövrdə sülh anlayışı yalnız siyasi sənədlərlə məhdudlaşmır; iqtisadi əməkdaşlıq, humanitar əlaqələr, enerji və ərzaq təhlükəsizliyi, iqlim dəyişiklikləri kimi faktorlar da davamlı sülhün tərkib hissəsinə çevrilib. Sülh Şurasının gələcəkdə qlobal sülhün əldə edilməsi və qorunmasında rolu onun inklüzivlik səviyyəsindən də asılıdır. Sirr deyil ki, qlobal miqyasda qarşıdurmaların artdığı bir zamanda dialoq mexanizmlərinin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Sülh Şurası preventiv diplomatiyanın təşviqi, erkən xəbərdarlıq mexanizmlərinin qurulması və münaqişələrin sülh yolu ilə həlli üçün tövsiyələrin hazırlanması istiqamətində sistemli fəaliyyət göstərə biləcək unikal bir sistemdir.

**Bakı dünyaya sülh modeli təqdim edir...**

Azərbaycanın bu prosesdə rolu xüsusi qeyd olunmalıdır. Son 6 ildə regional münaqişənin həllinə nail olaraq postmünaqişə mərhələsində sülh quruculuğu gündəliyini ön plana çıxaran Azərbaycan artıq yalnız öz təhlükəsizliyini təmin edən dövlət deyil, eyni zamanda regional sabitliyin təşəbbüskarı kimi çıxış edir. Enerji və nəqliyyat layihələri vasitəsilə müxtəlif ölkələri ortaq maraqlar ətrafında birləşdirməsi də sülhə töhfənin praktik nümunəsidir. Qarşılıqlı əməkdaşlıq və iqtisadi inteqrasiya münaqişə risklərini azaldan əsas amillərdən biri kimi məhz Azərbaycanın timsalında ortaya çıxır.

Bununla yanaşı, Azərbaycanın çoxtərəfli diplomatiyada fəal iştirakı, beynəlxalq humanitar təşəbbüslərə verdiyi dəstək və mədəniyyətlərarası dialoqu təşviq etməsi qlobal sülh gündəliyinə mühüm töhfədir. Ölkənin coğrafi və geosiyasi mövqeyi ona müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamaq imkanı verir. Bu amil Sülh Şurasının fəaliyyətində də əlavə üstünlük yarada bilər. Azərbaycan həm Şərq, həm də Qərb dünyası ilə konstruktiv münasibətlərə malik olmaqla dialoq üçün əlverişli platforma təqdim edir. Təsadüfi deyil ki, fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibəsində Prezident İlham Əliyev bildirmişdi ki, beynəlxalq hüquq artıq etibarlı deyil: “Ölkələr, bir çox ölkələr ona sadəcə məhəl qoymurdu. Yalnız beynəlxalq hüquqa arxalanmaq probleminizi həll etməyəcək. Azərbaycanın nümunəsi isə bunu həqiqətən nümayiş etdirir. Beləliklə, yeni dünya nizamının və ya hökumətlərarası münasibətlər üzrə yeni sistemin peyda olması, əlbəttə ki, işlənilmə mərhələsində idi. Məsələ onda idi ki, ilk addımı atmaq üçün kim üzərinə məsuliyyət götürəcək. Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş gördü”.

Birinci sammitlə bağlı fikirlərini bölüşən Prezident İlham Əliyev qeyd etmişdi ki, hər şey gündəlikdən asılı olacaq: “Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı “kim güclüdür, o da haqlıdır” anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir”.

**Qlobal sabitlik üçün...**

Beləliklə, Sülh Şurasının birinci iclası onun gələcək fəaliyyət istiqamətlərini müəyyən edəcək əsas mərhələyə çevrilə bilər. Burada konkret fəaliyyət planı, prioritet sahələr və əməkdaşlıq mexanizmləri müəyyənləşdirilərsə, qurum qlobal miqyasda nüfuzunu daha da artıra, hətta yeni sabitləşdirici aktora çevrilmək şansı əldə edər. Ən başlıcası isə sülhün yalnız siyasi sənəd kimi deyil, davamlı inkişaf, iqtisadi inteqrasiya və humanitar əməkdaşlıqla bağlı kompleks anlayış kimi təqdim olunmasıdır.

Nəticə etibarilə, Sülh Şurası beynəlxalq münasibətlər sistemində yeni institusional yanaşma təklif edir. Azərbaycanın bu prosesdə fəal iştirakı və təşəbbüskarlığı isə qlobal sülhün möhkəmləndirilməsinə real töhfə verə bilər. Müasir dövrdə sülhün qorunması üçün yalnız güc deyil, etimad, əməkdaşlıq və ortaq maraqların formalaşdırılması əsasdır - Sülh Şurası məhz bu prinsiplər üzərində qurulur və gələcəkdə qlobal təhlükəsizlik arxitekturasının mühüm elementinə çevrilmə vədi verir.

***P.İSMAYILOV***

# Bakının yeni nizam kodu: sülh, suverenlik və strateji dəhlizlər



## Qələbədən geosiyasi liderliyə gedən yol - Cənubi Qafqazın yenidən qurulmasında Azərbaycanın rolu

2020-ci ilin payızında başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycanın təkcə hərbi-siyasi qələbəsi ilə nəticələnmədi; bu qələbə regionun geosiyasi arxitekturasında köklü dəyişikliklərə yol açdı. Azərbaycanın qələbəsi, Ermənistanın isə kapitulyasiyasının nəticəsi kimi meydana çıxan 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatı Bakının Cənubi Qafqazda yeni mərhələnin başlanğıcını qoyması, yeni strateji dövrün əsası kimi müəyyənləşdi. Uzun illər "dondurulmuş münaqişə zonası" kimi xarakterizə edilən region artıq yeni təhlükəsizlik mexanizmləri, nəqliyyat-kommunikasiya xətlərinin açılması və iqtisadi inteqrasiya perspektivləri ilə gündəmə gəldi. Azərbaycan müharibədən dərhal sonra yalnız hərbi nəticələrin möhkəmləndirilməsi ilə kifayətlənməyərək, daha geniş vizyon ortaya qoydu: regionun qarşıdurma məkanından əməkdaşlıq platformasına çevrilməsi.

Bu baxışın mərkəzində dayanan əsas layihələrdən biri Zəngəzur dəhlizi (TRIPP) təşəbbüsüdür. Hələ 2020-ci ilin noyabr razılaşması imzalanarkən Bakı regiondaxili kommunikasiyaların açılmasını gələcək inkişafın təməl şərti kimi irəli sürmüşdü. Bu ideya qısa müddətdə regional çərçivəni aşaraq Avrasiyanın tranzit xəritəsində mühüm yer tutmağa başlayacaqdı. Əgər 1994-cü ildə imzalanmış və tarixə "Əsrin müqaviləsi" kimi düşən enerji sazişi Azərbaycanın qlobal enerji xəritəsində yerini möhkəmləndirmişdisə, bölgənin həyatına yeni ştrixlər əlavə etmişdisə, yeni mərhələdə açılacaq nəqliyyat-logistika infrastrukturu ölkənin strateji rolunu daha da genişləndirəcəkdi.

Bir nüansa mütləq diqqət yetirilməlidir - Zəngəzur dəhlizi (TRIPP) yalnız iki ölkəni birləşdirən yol deyil. Bu layihə Şərq ilə Qərb, Şimal ilə Cənub arasında alternativ və təhlükəsiz tranzit xətti formalaşdırmaq potensialına malikdir. Orta Dəhliz konsepsiyası çərçivəsində Azərbaycan artıq mühüm nəqliyyat qovşağına çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və digər infrastruktur layihələri ölkənin tranzit imkanlarını artırıb. Yeni təşəbbüs isə bu xəritəni daha da genişləndirərək Cənubi Qafqazı qlobal ticarət marşrutlarının ayrılmaz hissəsinə çevirir.

Azərbaycanın təqdim etdiyi yeni nizam modeli qarşıdurma və təcrid siyasətinə alternativ olaraq bərabərhüquqlu əməkdaşlıq prinsipinə əsaslanır. Bu yanaşma region dövlətlərinin suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı və iqtisadi inteqrasiyanın təşviqini özündə ehtiva edir. Müharibədən sonrakı dövrdə rəsmi Bakı revanşist ritorikadan uzaq dayanaraq sülh gündəliyini ön plana çıxardı. Bu isə Cənubi Qafqazda uzunmüddətli sabitliyin əsas şərti kimi qiymətləndirilir.

## Yeni iqtisadi dövr: Süveyş və Panamadan sonra Zəngəzur dəhlizi (TRIPP)...

Zəngəzur dəhlizi (TRİPP) müasir dövrün qlobal iqtisadi transformasiyası fonunda xüsusi əhəmiyyət kəsb edir. Bu layihə çox zaman tarixi nəqliyyat arteriyaları ilə müqayisə olunur - məsələn, necə ki, Süveyş kanalı və Panama kanalı dünya ticarət marşrutlarını dəyişdirərək qlobal iqtisadi dinamikanı yenidən formalaşdırmışdı, Zəngəzur dəhlizi (TRIPP) də Avrasiya məkanında analoji təsir gücünə malik ola bilər.

Layihənin mahiyyəti yalnız coğrafi keçid yaratmaqdan ibarət deyil. Burada əsas məqsəd Cənubi Qafqazı logistik körpüyə çevirməkdir. Azərbaycan müharibədən sonra formalaşdırdığı təhlükəsizlik mühitini iqtisadi dividendlərə yönəltməyi bacardı. Bu kontekstdə Orta Dəhlizin mövcud infrastrukturu yeni seqmentlə zənginləşir və tranzit müddətinin azalması, daşınma xərclərinin optimallaşdırılması kimi üstünlüklər ortaya çıxır.

Prezident İlham Əliyevin müxtəlif beynəlxalq platformalarda, o cümlədən sonuncu Münhen Təhlükəsizlik Konfransında səsləndirdiyi fikirlər layihənin yalnız regional deyil, qlobal əhəmiyyət daşıdığını göstərir. Müxtəlif iqtisadi güc mərkəzlərinin maraqlarının kəsişdiyi nöqtədə yerləşən bu dəhliz həm Avropa, həm Asiya, həm də Yaxın Şərq üçün alternativ marşrut deməkdir. Rəqabət içində olan aktorların belə layihə ətrafında ortaq maraq tapması Azərbaycanın diplomatik manevr imkanlarının genişliyini nümayiş etdirir.

Zəngəzur dəhlizi (TRIPP) həm də siyasi mesajdır: regionda sabitlik iqtisadi əməkdaşlıqla möhkəmlənə bilər. Bu xətt vasitəsilə Azərbaycan Naxçıvanla birbaşa quru əlaqəsini təmin edir, eyni zamanda region dövlətləri üçün yeni tranzit gəlirləri və investisiya imkanları yaradır. Beləliklə, layihə təkcə infrastruktur təşəbbüsü deyil, strateji inteqrasiya platformasıdır.

## Sabah üçün: qalib dövlətin sülh təşəbbüsü...

Zəngəzur dəhlizinin (TRIPP) reallaşması birbaşa sülh prosesinin uğurundan asılı idi. Başqa sözlə, bu dəhliz "sülhün meyvəsi" kimi ortaya çıxır. Azərbaycan hər zaman açıq şəkildə bəyan edib ki, regionda qalıcı sabitlik olmadan böyükmiqyaslı iqtisadi layihələrin icrası mümkün deyil. Bu isə Ermənistanla münasibətlərin normallaşdırılmasını zəruri edir.

Bir az keçmişə qayıdaq: Rəsmi Bakı 2022-ci ilin martında 5 baza prinsipindən ibarət sülh təşəbbüsü ilə çıxış etdi. Bu prinsiplər qarşılıqlı olaraq ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması və dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması kimi fundamental müddəaları əhatə edirdi. Qalib tərəfin bu cür beynəlxalq hüquqa əsaslanan təşəbbüs irəli sürməsi beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə, hətta bir az da təəccüblə qarşılandı. Qalib dövlət, Ermənistanın silahlı gücünü məhv edən dövlət, 30 illik münaqişəyə cəmisi 44 gündə son qoyan bir dövlət bütün beynəlxalq hüquq kodekslərinin gözlənilməsi, ərazi bütövlüklərinin və suverenliklərin qarşılıqlı tanınması, yenə də beynəlxalq hüquq əsasında delimitasiya və demarkasiya aparılması və bu kimi təkliflər irəli sürürdü.

Azərbaycanın bu xoşməramlı təklifi isə Ermənistan tərəfindən ləng qarşılanırdı - proses asan irəliləmirdi. Ermənistanda revanşist qüvvələrin mövcudluğu, regiondakı xarici aktorların maraqları və müxtəlif təxribat cəhdləri, xüsusilə Qarabağdakı separatçıların təslim olmamaları sülh gündəliyini ləngidirdi. Azərbaycan isə mövqeyində ardıcıl olaraq qalırdı: "bizə yalnız öz torpağımız lazımdır". Bu prinsip beynəlxalq hüquqa uyğun şəkildə suverenliyin tam bərpasını nəzərdə tuturdu.

Sülh prosesinin məntiqi nəticəsi olaraq Qarabağda qeyri-qanuni silahlı birləşmələrin ləğvi və dövlət suverenliyinin tam təmin olunması regionda yeni mərhələnin başlanğıcını qoydu. Bundan sonra artıq iqtisadi əməkdaşlıq məsələləri daha real müzakirə predmetinə çevrildi. Beləliklə, sülh və inkişaf bir-birini tamamlayan iki paralel xətt kimi formalaşdı.

## Sülhə yanaşma: Beynəlxalq platformalar və geosiyasi dinamika

2022-2023-cü illərdə regionda formalaşan sülh prosesi müxtəlif beynəlxalq platformaların da diqqət mərkəzinə çevrilmişdi. Brüssel və Soçi formatları çərçivəsində keçirilən görüşlər regionun gələcəyi ilə bağlı müzakirələr üçün meydan rolunu oynayırdı. Lakin bu platformalarda bəzən vasitəçi maraqları prosesin obyektivliyinə təsir göstərirdi. Azərbaycan problemin həlli üçün danışıqlar və sülh prosesi yaratmağa çalışırdı, özünü "vasitəçi" sayanlar isə yaranan situasiyadan yararlanmaq, sui-istifadə etmək, prosesi öz maraqlarına yönəltmək fikrində idilər. Bu isə nəticə etibarı ilə bu masaların ikisinin də fiaskosu ilə nəticələndi. Xüsusilə Avropa İttifaqı Şurasının təşəbbüsü ilə keçirilən Brüssel görüşləri müəyyən mərhələdə Fransanın qeyri-rasional mövqeyi səbəbindən çətinliklərlə üzləşdi. Parisin birtərəfli yanaşması balanslı dialoqa mane olurdu. Nəticədə proses arzuolunan sürətlə irəliləmədi. Soçi formatı isə Rusiya faktorunun təsiri altında idi və regional reallıqların dəyişməsi fonunda əvvəlki çəkisini qorumaqda çətinlik çəkirdi.

Antiterror əməliyyatlarından sonra isə bu prosesin də həm məcrası, həm də mahiyyəti dəyişdi. Azərbaycan artıq əsas diqqəti ikitərəfli danışıqlara yönəltdi. Bu model vasitəçilik institutundan asılılığı minimuma endirirdi. Münaqişə artıq başa çatmışdı və iki suveren dövlət arasında münasibətlərin normallaşdırılması üçün birbaşa dialoq daha effektiv hesab olunurdu. Bu yanaşma diplomatik məsuliyyəti birbaşa tərəflərin üzərinə qoyur və nəticəyönümlü mexanizm formalaşdırırdı.

## İkili format daha uğurludur: Vasitəçidən təşkilatçıya...

Beləliklə, beynəlxalq platformalar fonunda Azərbaycan öz milli maraqlarına uyğun çevik diplomatik strategiya həyata keçirdi. Bu strategiya regionun gələcəyini xarici manipulyasiyalardan qorumağa yönəlmişdi. Vurğulandığı kimi, Azərbaycan problemin həlli ilə bağlı vasitəçi axtarmırdı - 25 ildən artıq özünü vasitəçi kimi qələmə vermiş ATƏT-in Minsk qrupunun fəaliyyət(sizliy)i göz önündə idi. Azərbaycan artıq ikitərəfli görüşlərə start verirdi. Bu ikitərəfli görüşlərə isə müxtəlif ölkələr ev sahibliyi etdi - həmin ölkələr vasitəçi olmaq niyyətlərini ifadə etmədilər. Məsələn, Qazaxıstan bu kimi görüşlərə ev sahibliyi etsə də görüşlərdə vasitəçi qismində iştirak etmirdi. Bu isə məqbul bir hal idi - çünki artıq münaqişə bitmişdi və iki dövlət arasında münasibətlərin normallaşması prosesinə hansısa bir vasitəçiyə ehtiyac yox idi.

8 avqust 2025-ci il Cənubi Qafqazın yeni tarixində simvolik əhəmiyyət daşıyan tarix kimi qiymətləndirilir. Vaşinqtonda ABŞ-ın iştirakı ilə keçirilən görüşdə sülh sazişinin paraflanması və uzun illər formal mövcud olmuş ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı müraciətin edilməsi regionda post-münaqişə mərhələsinin tamamlandığını göstərdi.

Bu addım Azərbaycanın irəli sürdüyü yeni reallığın beynəlxalq səviyyədə qəbulunun göstəricisi idi. Artıq Cənubi Qafqaz qarşıdurma yox, əməkdaşlıq məkanı kimi təqdim olunurdu. Vaşinqton görüşü həm də onu göstərdi ki, regionun gələcəyi birbaşa tərəflərin iradəsindən asılıdır və xarici aktorların rolu yalnız dəstək və şahidlik funksiyası ilə məhdudlaşa bilər.

Bu mərhələdə Zəngəzur dəhlizi (TRIPP) və digər nəqliyyat layihələri konkret icra müstəvisinə keçdi. İnvestisiya axınları, regional iqtisadi inteqrasiya və ticarət dövriyyəsinin artımı üçün real imkanlar yarandı. Azərbaycan Avrasiyanın logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirdi.

## Yeni mərhələ: Vaşinqton Zirvəsinin strateji nəticələri və yeni yol xəritəsi

Bu, Bakının Cənubi Qafqaz üçün yaratdığı yeni reallığın gələcək strateji yol xəritəsinə çevrildi. Vaşinqton Zirvəsində imzalanan sənədlər, əldə olunan razılaşmalar yeni dövrün başlanğıcını qoydu, Avrasiyada yeni bir gələcəyi formalaşdırdı. Münhen təhlükəsizlik konfransındakı panel iclasında Prezident İlham Əliyev Zəngəzur dəhlizinin (TRIPP), Şərq-Qərb ticarət imkanlarının nələr vəd etdiyini bütün incəlikləri ilə aydın şəkildə ifadə etdi. Sitat: "Ötən il biz Azərbaycan vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə etdik. Bir neçə ildən sonra həmin göstərici 200 min və hətta 300 min nəqliyyat vahidinə çatacaq. Hədəf 500 min nəqliyyat vahididir. Biz bu məqsədlə artıq dəniz limanımızın genişləndirilməsinə başlamışıq və hazırda orada sərmayələr yatırılır.

Regional bağlantı layihələri. Söhbət təkcə dəmir yollarından getmir, həmçinin fiber-optik kabellər də nəzərdə tutulur. Hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiyadakı tərəfdaşlarımızla sıx işləyirik. O, bu il hazır olmalıdır və Ermənistanla sülh qurulduqdan sonra yeni imkanlar əldə olunub. Azərbaycandan Ermənistana və oradan Avropa istiqamətində gedən dəhlizin yük həcmi baxımından böyük potensialı var. Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur. Çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta Dəhlizin iki hissəsinə malik olacağıq. Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək".

Bu gələcək üçün yeni imknlar, təhlükəsizlik və inkişaf deməkdir. Beləliklə, 8 avqust tarixini yalnız siyasi sənədin imzalanması kimi deyil, regionun iqtisadi və geosiyasi xəritəsinin yenidən çəkilməsi kimi qiymətləndirmək olar.

## Siyasi iradənin və strateji baxışın məhsulu

Azərbaycanın yeni nizam konsepsiyası hərbi qələbədən sonra formalaşan siyasi iradənin və strateji baxışın məhsuludur. Bu model qarşıdurma ritorikasını deyil, vurğulandığı kimi, bərabərhüquqlu əməkdaşlığı ön plana çıxarır. Region dövlətlərinin suverenliyinə hörmət, beynəlxalq hüquqa əsaslanan münasibətlər və iqtisadi inteqrasiya bu konsepsiyanın əsas sütunlarıdır.

Zəngəzur dəhlizi (TRIPP) və Orta Dəhliz təşəbbüsləri Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. Bu layihələr yalnız tranzit gəlirləri deyil, həm də regionda qarşılıqlı əməkdaşlıq mexanizmi yaradır. İqtisadi əməkdaşlıq isə siyasi sabitliyin mühüm təminatlarından biridir.

Sülh sazişinin paraflanması və köhnə vasitəçilik mexanizmlərinin aradan qalxması Cənubi Qafqazda yeni mərhələnin başlandığını təsdiqləyir. Azərbaycan bu prosesdə təşəbbüskar və aparıcı aktor kimi çıxış edir. Yeni reallıq göstərir ki, güc yalnız hərbi qələbə ilə ölçülmür; strateji baxış, diplomatik çeviklik və iqtisadi inteqrasiya təşəbbüsləri də dövlətin qüdrətini müəyyən edən əsas amillərdir.

Beləliklə, Azərbaycanın yeni nizam kodu region üçün inkişaf, sabitlik və qarşılıqlı fayda modeli təqdim edir. Bu modelin uğuru isə tərəflərin üzərinə düşən məsuliyyətin dərk olunmasından və əldə olunmuş razılaşmaların praktik icrasından asılı olacaq.

***Pərviz SADAYOĞLU***

# Yeni Azərbaycan Partiyası zəngin və şərəfli inkişaf yoluna malikdir












Fevralın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının inkişaf yolundan bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Milli Məclisin deputatları Vüqar Rəhimzadə və Nigar Arpadarai, YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli, şəhid Murad Qurbanovun anası Mehriban Əmrahova, Vətən müharibəsi qazisi Ramin Şirinov çıxış ediblər.

Çıxışlarda Yeni Azərbaycan Partiyasının, həmçinin YAP Səbail rayon təşkilatının ötən müddət ərzində keçdiyi zəngin və şərəfli inkişaf yolundan bəhs edilib. Diqqətə çatdırılıb ki, təsis olunduğu gündən azərbaycançılıq ideologiyası əsasında milli maraqlara əsaslanan məqsədyönlü fəaliyyət göstərən partiya xalqın etimadını qazanaraq ümumxalq partiyasına çevrilmiş, ölkəmizin əldə etdiyi uğurlarda müstəsna rol oynamışdır.

Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasına nail olan Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Qeyd olunub ki, bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verir.

Sonra partiyanın və rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə fəxri fərman, YAP sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim olunub.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda bədii hissə təqdim olunub.

# Azərbaycan - Mərkəzi Asiya: Vahid region, ortaq gələcək

*Mübariz ABDULLAYEV*

Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə “C6: Vahid region, ortaq gələcək strateji dialoqun gücləndirilməsi” mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans çərçivəsində “Dialoqdan dayanıqlı mexanizmlərə: C6 əməkdaşlığının gələcəyi”, “Əlaqəlilik və inkişaf: C6 əməkdaşlığının iqtisadi ölçüsü və dayanıqlı inkişaf”, həmçinin “Qlobal qeyri-sabitlik şəraitində C6 regional təhlükəsizliyi” mövzularında müzakirələr aparılıb

Tədbirdə C6 formatına üzv ölkələrin aparıcı beyin mərkəzlərini təmsil edən ekspertlər, analitiklər və tədqiqatçılar iştirak ediblər. Konfrans C6 çərçivəsində strateji dialoqun dərinləşdirilməsi, ortaq yanaşmaların formalaşdırılması və regionun dayanıqlı inkişafına töhfə verəcək əməkdaşlıq mexanizmlərinin təşviq edilməsi məqsədilə təşkil olunub.

**Mərkəzi Asiyada Azərbaycana və onun Liderinə artan inam**

Ötən il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib və həmin görüş çərçivəsində əlamətdar hadisə baş verib. Belə ki, görüş çərçivəsində Azərbaycanın tamhüquqlu üzv qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərar qəbul edilib.

Azərbaycanın qonşu coğrafiyada yerləşən ölkələrin dövlət başçılarını bir araya gətirən Məşvərət Görüşü formatına taqmhüquqlu üzv qismində qoşulması sıradan bir hadisə deyil. Bu, Mərkəzi Asiyada Azərbaycana və onun Liderinə artan inamın növbəti təzahürüdür. Bunu  Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə liderlərin ifadə etdikləri fikirlərdən də görmək mümkündür.

Söhbət əslində Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpünün qurulmasından və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açılmasından gedir. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Burada Azərbaycan əsas, birləşdirici həlqə qismində çıxış edir. “Həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. “Mərkəzi Asiya +” formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq”, - deyə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev vurğulayıb.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət Görüşü formatına qoşulmasını tarixi qərar kimi səciyyələnirib. O, Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd edib ki, qardaş Azərbaycanın iştirakı ilə formatın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib.




Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək deyib: “Hörmətli İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu, balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir”.

Həmçinin tədbirdə çıxış edən Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırıb.

**Xüsusi xarakter daşıyan münasibətlər**

Hazırda dünyada ziddiyyətli proseslər izlənilir, xüsusilə də qütbləşmə dərinləşir. Ciddi narahatlıq yaradan mövcud geosiyasi reallıqlar fonunda hər bir dövlət üçün təbii müttəfiqlərinin sayını artırması zərurət qismində çıxış edir. Bu kontekstdə son illərdə Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin dərinləşməsi məmnunluq doğurur. Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin xüsusi xarakter daşığını bildirib. “Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Liderlərin intensiv hal alan təmasları, onların qarşılıqlı səfərlərinin sayının artması, həmçinin hüquqi bazanın imzalanan yeni sənədlərlə möhkəmləndirilməsi, müxtəlif sahələrdə uğurla icra olunan çoxsaylı layihələr respublikamızla Xəzərin digər sahillərindəki ölkələr arasında əlaqələrin genişlənməsinin əyani təsdiqidir. Qeyd edək ki, son 3 ildə Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olub, eyni zamanda, bu müddət ərzində həmin regionun liderləri 23 dəfə ölkəmizə səfərə gəliblər. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin müntəzəm xarakter alması etimad mühitinin möhkəmlənməsinin, gündəliyin kifayət qədər geniş əhatə dairəsinə malik olmasının əyani göstəricisidir.

Yaxşı haldır ki, tarixi ənənələr qorunur və münasibətlər daha da möhkəmlənir. Bu gün Azərbaycan və Mərkəzi Asiya ölkələrinin yaxınlaşmasına, daha sıx inteqrasiya etmələrinə dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir. Eyni zamanda, bunu  ölkələrin cəmiyyətləri istəyirlər. Bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi region qismində çıxış edir. Prezident İlham Əliyev bu amilə diqqət çəkərək bildirib ki, biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

**Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici körpü**

Azərbaycanın yaratdığı reallıqların nəticəsi olaraq Mərkəzi Asiya  dövlətlərinin Avropaya çıxış imkanları genişlənib. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür. Orta Dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır. Son 3 ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb. Zəngəzur Dəhlizinin (TRIPP marşrutunun) yaradılması ilə imkanlar daha da artacaq.

Bütövlükdə, Azərbaycan-Mərkəzi Asiya əlaqələri çoxvektorlu olması ilə səciyyələnir. Respublikamızın  Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalaması mühüm əhəmiyyət daşıyır. O cümlədən mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim dostluğumuza verdiyimiz dəyəri bariz şəkildə nümayiş etdirir.

Ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə yaxınlaşması və vahid platformada çıxış etməsi Azərbaycanın yerləşdiyi Cənubi Qafqazı inkar etmir. Respublikamızın qonşuluq siyasəti xoş mərama əsaslanır. O cümlədən qalib Azərbaycanın yaratdığı reallıqlar Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün yeni fürsət pəncərələri açıb. Ölkəmizin sülh gündəliyi də bu imkanlardan daha geniş istifadə olunmasını hədəfləyir. Şübhə yoxdur ki, Azərbaycanın Mərkəzi Asiya platformasında təmsilçiliyi hər iki regionun strateji qarşılıqlı əlaqəsini və bu əlaqələrin dayanıqlılığını daha da gücləndirəcək.

**C6 üçün daha işlək mexanizmlər**

Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında inteqrasiyanın dərinləşməsinə güclü siyasi iradə ortadadır. Eyni zamanda, münasibətləri irəli aparmaq üçün daha səmərəli mexanizmlərin yaradılmasına ehtiyac var. Bakıda keçirilən beynəlxalq konfransda buna çağırış edilib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev çıxışında bildirib ki, Azərbaycan Mərkəzi Asiya ilə fəal əməkdaşlıq etsə də, əsas məsələ bu əməkdaşlığın daha vahid, institusionallaşdırılmış və gələcəyə yönəlmiş çərçivə əsasında qurulmasıdır. Məqsəd əməkdaşlığı uzunmüddətli imkanlara çevirməkdir. C6 formatı məhz bu funksiyanı yerinə yetirməlidir. “C6 mövcud təşəbbüsləri təkrarlamadan, onların daha güclü və davamlı olmasına, eləcə də təsir dairəsinin genişlənməsinə kömək edə bilər. C6 uzunmüddətli fəaliyyət üçün praktik və inklüziv olmalıdır. Regionumuzun müxtəlifliyini nəzərə alaraq əməkdaşlıq yalnız çevik və nəticəyönümlü olduqda effektiv olur. Davamlı regional format isə fərqlilikləri hörmətlə qarşılayan, nəticələrə fokuslanan və ortaq strateji tələblərə uyğun olan formatdır,” - deyə F.Şəfiyev əlavə edib.

Qazaxıstan Respublikası Prezidenti yanında Milli Qurultayın üzvü Talqat Kaliyev çıxışı zamanı bildirib ki, C6 formatı çərçivəsində kiçik, çevik və mobil katibliyin yaradılması məqsədəuyğun ola bilər. Belə bir mexanizm institusional yaddaşın qorunmasını təmin edər, eyni zamanda, çevik və gələcəyə yönəlik proseslərin ardıcıllığını saxlayar.

Dost ölkənin təmsilçisi qeyd edib ki, hazırkı mərhələdə ənənəvi əməkdaşlıq formatları öz imkanlarını böyük ölçüdə tükədib və bu səbəbdən daimi yaradıcı axtarış, çevik yanaşma və mövcud vəziyyətin davamlı monitorinqi zəruridir. Əsas məqsəd yeni, daha effektiv və daha maraqlı əməkdaşlıq mexanizmləri təklif etməkdən ibarət olmalıdır.

Talqat Kaliyev, həmçinin gənc nəslin regional yaxınlaşmaya istiqamətləndirilməsinin vacibliyini xüsusi vurğulayıb. O bildirib ki, məktəblərarası və akademik mübadilə proqramlarının təşkili, davamlı dialoq və ümumi regional kimliyin formalaşdırılması gələcək əməkdaşlığın möhkəm təməlini yarada bilər.

Talqat Kaliyev vurğulayıb ki, dünya sürətlə regionalizasiyaya doğru irəliləyir və bu şəraitdə C6 ölkələri üçün ortaq gündəliyin formalaşdırılması, birgə qərarların qəbulu və yaranan qlobal qeyri-sabitlikdən maksimum fayda əldə etmək xüsusi əhəmiyyət kəsb edir.

# Xalqımıza qarşı cinayət törədənlərin cəzası...

## Bakıda çıxarılan ədalətli qərar bəşəri cinayətlərin cəzasız qalmayacağını dünyaya nümayiş etdirdi

*Nardar BAYRAMLI*

Ermənistan 30 ilə yaxın müddət ərzindəki işğal siyasətində azərbaycanlılara qarşı çoxsaylı cinayətlər törədib. Hərbi və müharibə cinayətlərinin bəşəriyyətə qarşı yönəlməsinə baxmayaraq, beynəlxalq birlik ermənilərin cinayətlərinə qarşı susqunluq nümayiş etdirib. Halbuki Azərbaycan bu cinayətlər barədə beynəlxaq ictimaiyyəti daim məlumatlandırıb. Dünya birliyi Ermənistanın işğalçılıq siyasəti ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrası üçün heç bir addım atmadı, həmin sənədlər 27 il kağız üzərində qaldı. Belə olan halda, dövlətimiz BMT Nizamnaməsinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etdi. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında isə Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində erməni separatçılarının kökü kəsildi.

**Hərbi cinayətkarlar layiqli cəzalarını aldılar**

Azərbaycan o ölkələrdəndir ki, həm öz ərazi bütövlüyünü və tam suverenliyini öz gücü ilə, heç bir yerdən yardım almadan, bütün təzyiqləri dəf edərək bərpa etdi, həm də müharibə cinayətlərini törətməkdə ittiham olunan şəxslərin mühakiməsinə nail oldu. Azərbaycan öz gücü və qətiyyəti hesabına vətəndaşlarına münasibətdə ədaləti təmin etdi. Azərbaycanın seçdiyi yolda yalnız ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda ədalətin təmin edilməsi dayanır. Cinayətin cəzasız qalmaması prinsipi Azərbaycanın münaqişəyə baxışının əsasını təşkil edir və bu model beynəlxalq humanitar hüququn fundamental tələbləri ilə tam uzlaşır. Məhz bu yanaşma sayəsində müharibə və insanlıq əleyhinə cinayətlərin hüquqi müstəvidə araşdırılması mümkün oldu.

Belə ki, Qarabağda antiterror tədbirlərindən sonra separatçı rejimin rəhbərliyində olmuş ermənilər, torpaqlarımızın işğalında iştirak edən yüksək rütbəli hərbçilər həbs olunaraq ədalət mühakiməsinə çıxarıldılar.  Bu günlərdə məhkəmə tərəfindən onlara hökm oxunub. Sonuncu hökm isə fevralın 17-də Ruben Vardanyan haqqında verilib. Belə ki, ötən il yanvarın 17-də başlamış və 1 ildən çoxdur davam edən məhkəmə prosesində təqsirləndirilən şəxsin barəsində yekun məhkəmə qərarı  elan edilib. Elan olunub ki, təqsirləndirilən şəxsə Azərbaycan Cinayət Məcəlləsinin 228.3-cü maddəsi ilə elan edilmiş ittihamlar həmin Məcəllənin 228.2.1-ci maddəsinə tövsif edilib. Elan edilib ki, Vardanyan Ruben Karlenoviç Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.



**Ruben Vardanyan separatçıların maliyyə mənbəyi olub**

Nəzərə alaq ki, postmünaqişə mərhələsində dövlətlərin üzləşdiyi əsas məsələlərdən biri müharibə dövründə və ondan əvvəl törədilmiş ağır cinayətlərin hansı hüquqi çərçivədə qiymətləndirilməsidir. Silahlı toqquşmalar başa çata, ərazi üzərində nəzarət bərpa oluna bilər, lakin zorakılıq nəticəsində yaranmış hüquqi məsuliyyət aradan qalxmır. Bu baxımdan Ruben Vardanyan işi Azərbaycan üçün sadəcə bir məhkəmə prosesi deyil, uzun illər mövcud olmuş separatçı sistemin daxili mexanizmlərinin hüquqi müstəvidə ifşa edilməsi deməkdir. Burada əsas diqqət bir şəxsin fərdi bioqrafiyasına deyil, onun yaratdığı və ya dəstəklədiyi cinayət infrastrukturlarına yönəlib.

Separatçı rejimlərin davamlılığı, adətən, ideoloji çağırışlardan deyil, onların maliyyə və təşkilati dayaqlarından asılı olur. Qarabağ bölgəsində uzun müddət fəaliyyət göstərmiş qanunsuz silahlı strukturlar da bu baxımdan istisna təşkil etməyib. Məhkəmə materialları göstərib ki, Ruben Vardanyan həmin strukturların maliyyə təminatında, təşkilati koordinasiyasında və legitimlik görüntüsünün formalaşdırılmasında əsas fiqurlardan biri kimi çıxış edib. Bu fəaliyyətlər hüquqi baxımdan siyasi mövqe kimi deyil, ağır cinayət tərkibləri yaradan konkret əməllər kimi qiymətləndirilib.



**Ekspert: Cinayətkarlara əsrin məhkəməsinin qurulması tarixi hadisədir**

Məsələ ilə bağlı  “Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri, hərbi ekspert Emin Həsənli bildirib ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyinin bərpa olunması ilə erməni separatçıların, cinayətkarların tutularaq Bakıya gətirilməsi, onlara əsrin məhkəməsinin qurulması çox böyük tarixi hadisədir. Bu, həm də beynəlxalq ictimaiyyətə bir ismarışdır. Heç bir cinayət cəzasız qalmır, ədalət gec-tez öz yerini tutur. Onun sözlərinə görə, Prezident, Ali Baş Komandan İlham Əliyev hər zaman çıxışlarında Azərbaycanın suverenliyinin bərpa olunacağını, dövlətimizə qarşı törədilmiş cinayətlərin ən ağır şəkildə cəzalandırılacağını qeyd edib. İndi bu şəxslərin Azərbaycanda ədalət məhkəməsinə çıxarılaraq onlara haqq etdikləri cəzaların təyin olunması insanlıq əleyhinə törədilən cinayətlərin mütləq cəzalandırılacağına bir ümid yaradır. “Ermənistana vaxtilə kömək etmək istəyən güclər, indi də məhkəmə prosesini təzyiq vasitəsi kimi istifadə etmək istəyirlər. Halbuki onlar beynəlxalq hüququ, Cenevrə konvensiyasını yazıblar. Həmin ölkələr əslində ədalətin bərqərar olmasını, cinayətkarların cəzalanmasını istəməlidirlər. Amma təəssüf ki, tam əksini görürük”, - deyə o vurğulayıb.

Ekspertin də dediyi kimi,  həmin cinayətkarların məhkəməsi ilə bağlı Azərbaycana xaricdən güclü və əsassız siyasi təzyiqlər var idi. Avropa Parlamenti, AŞPA, eləcə də müxtəlif ölkələrin parlamentlərində erməni lobbisinin təsiri ilə bir sıra “sənədlər” qəbul edilib.  Lakin bütün bunlar Prezident İlham Əliyevin qətiyyətli mövqeyinə heç bir təsir göstərmək iqtidarında olmadı. Çünki haqq-ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. İnsanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxsləri ədalət mühakiməsinə cəlb etmək, buna nail olmağın özü ədalətin təntənəsidir, münaqişələrin və müharibələrin ədalətli həlli üçün ən məqbul modeldir.

# Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi

## Azərbaycan və BƏƏ ikitərəfli əlaqələrin yeni gündəliyini müəyyənləşdirir

Körfəz Əməkdaşlığı Şurasında və Ərəb Dövlətləri Liqasında aparıcı lider dövlətlərdən biri olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Azərbaycan arasında dərin hörmət və sıx dostluğa əsaslanan münasibətlər son illərdə inkişaf edərək bütün sahələrdə irəliləməkdədir. Ali və yüksək səviyyədə səfər mübadilələri və qarşılıqlı təmaslar, eləcə də beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, aktiv parlament diplomatiyası və müxtəlif sahələrdə dinamik fəaliyyət Bakı-Əbu-Dabi əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə qalxmasına gətirib çıxarıb.

Son dövrlərdə BƏƏ-nin hökumət nümayəndələrinin və dünya miqyaslı nəhəng korporosiayalarının, iş adamlarının Azərbaycana intensiv xarakter alan səfərləri Bakı-Əbu-Dabi əlaqələrinin strateji tərəfdaşlığının nümunəsi olmaqla, ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapıların açılmasını təşviq edir. Müasir iqtisadi gündəliyin geniş və çoxşaxəli istiqamətləri müəyyənləşir. Əgər bir neçə ilə qədər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib və qeyri-neft sektorunun bütün istiqamətlərində əlverişli işgüzar təmaslar qurulub və bu əməkdaşlıq dayanmadan irəliləyir.





**Aqrar sahədə əməkdaşlığın perspektivləri**

Ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqlim dəyişikliyi və ətraf mühit naziri Amna bint Abdulla Əl Dahak Əl Şəmsinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə bir sıra faydalı görüşlər keçirib. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov ilə görüşdə iki ölkə arasında əməkdaşlığı inkişaf etdirmək üçün böyük potensialın olduğunu vurğulanıb. Qeyd olunub ki, ixracyönümlü məhsullar haqqında müntəzəm məlumat mübadiləsi aparmaq, hər iki ölkədə keçirilən beynəlxalq sərgilərdə qarşılıqlı iştirak etmək imkanlarını araşdırmaq vacibdir. Bu baxımdan konkret sahələr üzrə əməkdaşlığın genişləndirilməsi üçün hüquqi bazanın formalaşdırılmasının vacibliyini vurğulayıb.

Birləşmiş Ərəb Əmirliklərinin dünya miqyasında daha etibarlı qida təchizatı zənciri yaratmaq üçün beynəlxalq əməkdaşlıqların qurulmasının vacibliyinə diqqət çəkən Abdulla Əl Dahak Əl Şəmsi bildirib ki, Bakıda keçirdiyi görüşlər aqrar sahədə əməkdaşlığın genişləndirməsi üçün mühüm dönüş nöqtələrindən biri ola bilər. BƏƏ-nin aparıcı investorlarının ölkəmizin heyvandarlıq və kənd təsərrüfatının digər sahələrinə investisiya qoyuluşu imkanları, aqrar sahədə yeni texnologiyaların tətbiqi və digər layihələrin icrası gözlənilir. Bu prioritetlərə nail olmaq üçün tərəflər arasında birgə işçi qrupunun yaradılması və Anlaşma Memorandumunun imzalanması nəzərdə tutulur.

BƏƏ-nin nüfuzlu "Al-Tayeb" şirkətinin direktoru Riyad Cabbar isə bildirib ki, hazırda Azərbaycan şirkətləri ilə əməkdaşlıq şəraitində meyvə, tərəvəz və quş əti məhsullarının tədarükü ilə bağlı məsləhətləşmələr aparılır. Dünya üzrə güclü tədarük ofisinə sahib olan bu təchizatçı şirkət e-ticarət platforması qurmaqla azərbaycanlı fermerlərin mallarının topdansatış sistemini qurmaq niyyətindədir. Bu isə milli ixracın körfəz regionuna çıxışı üçün yeni qapı açacaq.

**Birgə İnvestisiya Fondu maliyyələşdirmədə fəal rol oynayır**

İqtisadiyyat naziri Mikayıl Cabbarovun BƏƏ-nin iqlim və ətraf mühit naziri Amna Al Dahakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə də ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri müzakirə edilib. Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanıb, müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, enerji, həmçinin bərpaolunan enerji, kənd təsərrüfatı, qida təhlükəsizliyi, nəqliyyat, logistika, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olunub. Ticarəti daha da asanlaşdırmaq və liberallaşdırmaq, həmçinin qeyri-neft-qaz sektoru üzrə dövriyyəni artırmaq məqsədilə imzalanmış Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişinin iqtisadi əlaqələrin inkişafında önəmi nəzərə çatdırılıb.

Azərbaycanda yaradılan əlverişli investisiya mühiti vurğulanıb, iki ölkənin iştirakı ilə yaradılmış Birgə İnvestisiya Fondunun qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsində və maliyyələşdirilməsində rolu diqqətə çatdırılıb. Həmçinin "Masdar" şirkətinin Azərbaycanın bərpaolunan enerji sektoruna sərmayələrinin əhəmiyyətinə toxunulub.

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd Əl Bluşi hökumət nümayəndələrinin və iqtisadi qurumların, biznes icmalarının qarşılıqlı səfərlərinin iki dövlət arasında investisiya, sənaye, kənd təsərrüfatı, turizm, iqlim, şəhərsalma və digər sahələr üzrə əməkdaşlığın inkişafına xüsusi töhfə verdiyini diqqətə çatdırıb. Bildirib ki, son iki il ərzində müxtəlif sektorlarda əməkdaşlığı təşviq edən 20-dən çox saziş imzalanıb və yeni sənədlərin mübadiləsinə hazırlıq aparılır, artıq qida sahəsində əməkdaşlıq üçün yeni imkanlar müəyyən edilib. Yaxın zamanda BƏƏ və Azərbaycan arasında birgə müəssisələrinin yaradılmasına investisiya qoyuluşu ilə bağlı müzakirələr aparılacaq ki, bu da birgə sərmayə təşviqlətini daha da gücləndirəcək.

**"Yaşıl enerji"nin yeni səhifəsi**

BƏƏ şirkətləri Azərbaycanın strateji tərəfdaşı kimi enerji və iqtisadi inkişafa töhfə verir. Bu ölkənin nəhəng investoru "Masdar" Azərbaycanda ən potensial investorlardan biridir, şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya ötən il istifadəyə verilib.

"Masdar"la imzalanmış digər sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpa olunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. Bundan başqa, "Masdar"la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb.

"Masdar" şirkəti Azərbaycanlı şirkətlərlə birgə Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində işləyir. İnvestisiya planına əsasən, Azərbaycanın bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə yatırılacaq. Bu iri layihələr nəhəng investisiya portfelinin göstəricisi kimi BƏƏ şirkətlərinin Azərbaycana olan yüksək münasibətini əks etdirir.

**Azad ərazilərdə BƏƏ investisiyaları üçün imkanlar**

Tərəflər digər investisiyayönümlü layihələr üzərində fəal iş aparır və səfər çərçivəsində ölkəmizə gəlmiş nümayəndə heyətlərinin tərkibində nüfuzlu səhmdarların yer alması da bunu təsdiqləyir. Müasir strateji baxış isə əsas etibarilə qeyri-neft bölmələrinə fokuslanıb və hazırda ticari dövriyyədə nəzərə çarpan dinamikanın da əsas hərəkətverici xətti qeyri-neft üzrə əmtəə mübadiləsidir. 2025-ci ildə əmtəə mübadiləsi 115,6 milyon dollar təşkil edib, imkanlar isə daha böyükdür. Mövcud potensialları bir platformada birləşdirən tərəflər müştərək iqtisadi hədəfləri həyata keçirmək üçün daha geniştutumlu Yol Xəritəsi hazırlayıb.

Azərbaycanla BƏƏ arasında qurulmuş uzunmüddətli uğurlu tərəfdaşlığın əsas prioritetləri sırasına azad edilmiş ərazilərdə müxtəlif sahələrdə iş qurmaq, o cümlədən bərpaolunan enerji və turizm infrastrukturlarını inkişaf etdirmək də daxildir.

Beləliklə, BƏƏ-nin hökumət nümayəndə heyətinin ölkəmizə səfərləri iqtisadi-ticari əlaqələrin yüksək səviyyəyə çatmasına, investisiya üzrə proqramların həlledici mərhələyə daxil olmasına imkan yaradacaq.

***E.CƏFƏRLİ***

# Rəqəmsal iqtisadiyyat ekosistemi formalaşdırılır

Azərbaycanda enerji sektorunda süni intellektin tətbiqi ilə bağlı ilk sistemli konsept hazırlanıb. "Enerjidə süni intellekt həlləri" adlı sənəddə Azərbaycanda enerji sahəsində mövcud vəziyyət və əsas çağırışlar təhlil olunub, 40 qlobal həll konsepti əsasında mümkün tətbiq istiqamətləri müəyyənləşdirilib: "Sənəd enerji istehsalı, ötürülməsi və idarə olunmasında səmərəliliyin artırılması, itkilərin azaldılması və qərarvermə proseslərinin optimallaşdırılması baxımından süni intellekt alətlərinin potensialını qiymətləndirir. İqtisadiyyat Nazirliyi yanında IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərovun sözlərinə görə, təşəbbüs beynəlxalq təcrübə əsasında hazırlanıb və Azərbaycanın enerji sektorunda rəqəmsal transformasiyanın dərinləşdirilməsinə xidmət edəcək.

## Süni intellekt vasitəsilə 70 milyon manat məhsul istehsalı planlaşdırılır

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru bildirib ki, rəqəmsal iqtisadiyyatın inkişafına dair strategiya 2026-2029-cu illəri əhatə edir və sənəd çərçivəsində 3 məqsəd, 9 prioritet istiqamət və 50 təşəbbüs müəyyənləşdirilib. Təşəbbüslər biznes, cəmiyyət və dövlət istiqamətləri üzrə bölüşdürülüb. Ümumilikdə təşəbbüslərin 26-sı biznes, 15-i cəmiyyət, 9-u isə dövlət üzrə nəzərdə tutulub. Əsas hədəf rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, mövcud bizneslərin rəqəmsallaşmasının sürətləndirilməsi və yeni rəqəmsal biznes modelləri vasitəsilə əlavə dəyərin yaradılmasıdır.

F.Cəfərov qeyd edib ki, strategiyanın icrası nəticəsində yüzlərlə müəssisənin rəqəmsal transformasiya proqramlarına cəlb olunması, yeni startapların yaradılması və İKT üzrə yüksək ixtisaslı mütəxəssislərin payının artırılması nəzərdə tutulur. Strategiyanın icrası nəticəsində 300 müəssisənin rəqəmsal transformasiya proqramlarında iştirakı, 250 yeni startapın yaradılması, 200 KOB-un rəqəmsal bazarlara çıxışı və 40 min vətəndaşın təlimlərə cəlb olunması nəzərdə tutulur. Generativ süni intellekt əsaslı həllər vasitəsilə 70 milyon manat dəyərin yaradılması planlaşdırılır.

Bu prosesin tətbiqi üçün artıq dövlət qurumlarında da zəruri infrastrukturlar qurulmaqdadır. Kənd təsərrüfatı sahəsində rəqəmsal transformasiyanın sürətləndirilməsi, məlumat əsaslı qərarvermə mexanizmlərinin təkmilləşdirilməsi və süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsi əsas vəzifələrdən biri kimi müəyyənləşib, bu sahədə süni zəka texnologiyalarının tətbiqi genişləndiriləcək.

Maliyyə Nazirliyi də süni intellektin tətbiqinə hazırlaşır. Nazirliyin Müasir texnologiyalar və innovasiyalar şöbəsinin müdiri Nurlan Soltanov bildirib ki, "Data warehouse"un formalaşması ilə bağlı iş aparılır ki, məqsəd süni intellektin istifadə olunmasının əsas mahiyyəti olan datanı qurmaqdır. Bu istiqamətdə atılan addımlar sayəsində həmin infrastrukturun qurulması mümkün olacaq. Həmçinin, Hesablama Palatasında isə hesab edirlər ki, süni intellektin köməyi ilə audit fəaliyyətində böyük həcmdə məlumatların avtomatik toplanmasını və təhlil sayəsində auditorların işini daha sürətli və dəqiq olmasını təmin etmək mümkündür.

Ümumilikdə, mövcud yanaşmaların məqsədi dövlət qurumlarında xərcləri azaltmaq, iş prosesini sürətləndirməyə və daha obyektiv nəticələr əldə etməyə çatmaqdır.

## Dünya Bankının Azərbaycan üçün hazırladığı rəqəmsal Yol Xəritəsi

Azərbaycanın rəqəmsal inkişaf strategiyasının həyata keçirilməsində beynəlxalq institutlarla əməkdaşlıq da əsas məqsədlərdən biridir. Bu istiqamətdə Dünya Bankı (DB) ilə tərəfdaşlıq çərçivəsi sənədinin hazırlanması planlaşdırılır. DB-nin hazırladığı "Azərbaycan üçün rəqəmsal bacarıqların inkişafı üzrə Yol Xəritəsi" rəqəmsal potensialın gücləndirilməsi və sürətlə inkişaf edən rəqəmsal cəmiyyətdə vətəndaşların tamhüquqlu iştirakının təmin edilməsi üçün strateji əsasları formalaşdırır. Sənəddə dövlət və özəl rəqəmsal xidmətlərə çıxış, əmək bazarında uğurlu fəaliyyət və ölkənin inklüziv rəqəmsal transformasiyasında iştirak üçün zəruri olan səriştələrin əhalidə formalaşdırılmasına yönəlmiş sistemli siyasət tədbirləri də nəzərə alınıb. Dünya Bankının təhlillərinə görə, ortamüddətli dövrdə əhalinin 65 faizi baza rəqəmsal bacarıqlara malik olmalıdır. Həmin göstəricinin və onun əldə edilməsi üçün rəqəmsal arxitektura mühüm rol oynaya bilər.



Dünya Bankının qiymətləndirməsinə görə, Azərbaycanın yetkin əhalisinin təxminən üçdə biri işçi qüvvəsindən və təhsil sistemindən kənardadır. Bu kateqoriya üçün rəqəmsal bacarıqların inkişafı sosial inklüzivlik və imkanların genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bank onlayn təhlükəsizlik, rəqəmsal alətlərdən istifadə etməklə praktiki məsələlərin həlli və rəqəmsal məzmunun yaradılması daxil olmaqla, əsas istifadəçi ssenarilərinə diqqət yetirməyi təklif edir. Onlayn təhlükəsizliyə xüsusi vurğu edilir, çünki 16-74 yaş arası vətəndaşların yarısından çoxu rəqəmsal mühitdə qorunma üzrə baza tədbirləri görməmişdir. Prioritetlər sırasında həmçinin məlumatın tənqidi qiymətləndirilməsi bacarıqları, dezinformasiya və dipfeyklərin tanınması, sosial şəbəkələrdən təhlükəsiz istifadə, onlayn ödənişlər və bank əməliyyatları, mətnlərin yaradılması üçün generativ süni intellektin tətbiqi yer alır. Səhiyyə, subsidiyalar, rəqəmsal kənd təsərrüfatı alətləri və onlayn bazarlar daxil olmaqla, elektron dövlət xidmətlərinin genişləndirilməsi rəqəmsal bacarıqların inkişafına olan marağı əlavə olaraq stimullaşdıra bilər. Dünya Bankı boşluqları üzə çıxarmağa və təlim ehtiyaclarını müəyyən etməyə kömək edəcək pulsuz özünüqiymətləndirmə alətlərinin tətbiqini, həmçinin vətəndaşların motivasiyasını artırmaq üçün onları müvafiq hazırlıq proqramları ilə əlaqələndirməyi tövsiyə edir.

Yol xəritəsinin icrasında əlaqələndirici rolu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi dövlət qurumlarını, biznesi və vətəndaş cəmiyyətini birləşdirərək öz üzərinə götürə bilər. Yüksək səviyyəli əlaqələndirmə mexanizminin yaradılması, illik tərəqqi hesabatlarının dərci, ITU metodologiyası üzrə hər 1-2 ildən bir monitorinqin aparılması və Süni İntellektdən istifadə bacarıqları, onlayn təhlükəsizlik və həssas qrupların rəqəmsal inklüzivliyi daxil olmaqla, əlavə indikatorların işlənib hazırlanması tövsiyə olunur.

## ABŞ və İsrailin rəqəmsal tərəfdaşlıq planları

Azərbaycan süni intellekt, robot texnologiyaları, rəqəmsal arxitektura quruculuğunda qlobal miqyaslı xarici şirkətlərlə əməkdaşlığı da artırmaq niyyətindədir. ABŞ-la bir müddət əvvəl imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiyasında öz əksini tapan mühüm bəndlərdən biri süni intellekt, rəqəmsal infrastruktur və kosmik sənaye sahəsində layihələrin təşviqini nəzərdə tutur. Həmçinin Tədqiqat və İnkişaf (R&D) platformaları, innovasiya körpü proqramları və kibertəhlükəsizlik təşəbbüsləri həyata keçiriləcək. Bu əməkdaşlıq çərçivəsində ölkəmizdə texnoloji istedadların inkişafı və transsərhəd rəqəmsal bağlantıların gücləndirilməsi dəstəklənəcək.

İsrail və Azərbaycan arasında bir neçə gün əvvəl süni intellekt sahəsində əməkdaşlığa dair imzalanmış memorandumda əsasən, kibertəhlükəsizlik, rəqəmsallaşma və kosmik sahədə qarşılıqlı proqramların icrası planlaşdırılır. Eləcə də, Azərbaycan və Böyük Britaniyanın bp şirkəti süni intellekt, kibertəhlükəsizlik və rəqəmsallaşma sahələrində birgə addımların atılması barədə razılığa gəlib.

Əməkdaşlıq planına əsasən, insan kapitalının inkişafı və logistika proseslərində "AZCON Holding"lə birgə süni zəka layihələrinin icrası təmin olunacaq.

***E.CƏFƏRLİ***

# Dünya müstəmləkəçilikdən xilas olmalıdır!

Müstəmləkəçilik keçmişin ən eybəcər qalıqlarından biridir. Onun təməlində istismar, təbii sərvətlərin talanması, insan ləyaqətinin alçaldılması, qul əməyi, cinsi zorakılıq, milli-dini kimliyin inkar edilməsi kimi amillər dayanır. Təəssüf doğuran haldır ki, Avropanın demokratiyanı, insan haqlarını, bərabərliyi, qardaşlığı özləri üçün şüar seçmiş yüksək inkişaf səviyyəsinə malik ayrı-ayrı ölkələri hələ də bu kimi eybəcərlikləri özündə birləşdirən müstəmləkəçilik siyasətindən əl çəkmək istəmir və onu müxtəlif adlar altında davam etdirməyə çalışırlar.

Ancaq artıq XXI əsrdir, internet dövrüdür. İnsanların azadlıq arzularını boğmaq getdikcə çətinləşir. Dünyada müstəmləkəçiliyə qarşı güclü hərəkatın başladığı müşahidə olunur. Ölkələr, xalqlar getdikcə daha qətiyyətlə öz hüquqlarını tələb edirlər və müstəqillik uğrunda mübarizəyə qalxırlar. Yaxşı haldır ki, genişlənən və dönməz hal alan bu hərəkata beynəlxalq dəstək də artır.







## 100-dən çox ölkə müstəqillik qazansa da...

Dünyada dekolonizasiya prosesini sürətləndirməyə növbəti çağırış Birləşmiş Millətlər Təşkilatından (BMT) gəlib. Baş katib Antonio Quterreşin Dekolonizasiya üzrə Xüsusi Komitənin sessiyasının açılışında səsləndirilmiş müraciətində bildirilib ki, BMT son onilliklərdə əldə olunan mühüm irəliləyişi qeyd etməklə yanaşı, bütün dünyada dekolonizasiya prosesinin başa çatdırılmasına nail olmağa davam edir.

BMT rəhbərinin adından çıxışı aparat rəhbəri Korteni Rattray səsləndirib. O xatırladıb ki, təşkilat yaranandan bəri dekolonizasiya qurumun əsas vəzifələrindən biri olaraq qalır. BMT dövlətlərin "idarə edənlər və tabe olanlar" sistemi çərçivəsində deyil, bərabərhüquqlu əsasda qarşılıqlı fəaliyyət göstərdiyi platforma kimi nəzərdə tutulub.

1945-ci ildən etibarən 100-dən çox ölkə müstəqillik əldə edib və bu gün getdikcə daha çox insan öz müqəddəratını təyinetmə hüququnu həyata keçirir. Bununla belə, müstəmləkəçiliyin nəticələri iqtisadi bərabərsizlik, irqçilik və bəzi xalqların beynəlxalq səviyyədə qərarların qəbulunda məhdud iştirakı şəklində hələ də hiss olunur.

Hazırda dünyada 17 özünüidarəetmə hüququndan istifadə edə bilməyən ərazi var. BMT-də hesab edirlər ki, bu ərazilərin gələcəyi həmin ərazilərin nümayəndələri, idarə edən dövlətlər və BMT-yə üzv dövlətlər arasında inklüziv dialoq yolu ilə, hər bir ərazinin özünəməxsus ehtiyacları nəzərə alınmaqla və BMT Nizamnaməsinə və Baş Assambleyanın qərarlarına uyğun şəkildə müəyyən edilməlidir.

Müraciətdə gənclərin roluna xüsusi diqqət yetirilib. Baş katibin fikrincə, gənclər daha ədalətli və inklüziv gələcəyin formalaşdırılmasının hərəkətverici qüvvəsinə çevrilməlidirlər.

Ötən ilin dekabrında BMT-də ilk dəfə müstəmləkəçiliyin bütün formaları və təzahürləri ilə mübarizə üzrə Beynəlxalq Gün qeyd olunub. Bu gün əldə olunmuş irəliləyişə baxmayaraq, dekolonizasiya istiqamətində işlərin hələ başa çatmadığını xatırladır.

## Afrika xalqları qitənin sərvətlərindən faydalanmalıdırlar

BMT-nin Baş katibi Əddis-Əbəbədə keçirilən 39-cu Afrika İttifaqı sammitindəki çıxışında isə bölünmə və inamsızlıqla xarakterizə olunan bir dünyada Afrikanın "çoxtərəfliliyin flaqmanı" olduğunu bildirib. O, Təhlükəsizlik Şurasında daimi Afrika yerlərinin olmamasını tənqid edərək deyib: "İndi 1946-cı il deyil, 2026-cı ildir. Afrika və dünya ilə bağlı qərarlar masada olduqda, bu qitənin liderləri də müzakirələrdə iştirak etməlidirlər".

Baş katib Afrika ilə daha dərin əməkdaşlıq üçün 3 prioriteti - sülh, iqtisadi fəaliyyət və iqlim ədalətini qeyd edib. O, sülh məsələsində Sudanda hərbi əməliyyatların dərhal dayandırılmasına, Cənubi Sudanda dialoqun bərpasına və Konqo Demokratik Respublikasının ərazi bütövlüyünə hörmət edilməsinə çağırıb. Quterreş, habelə Sahel, Liviya və Afrika Buynuzu boyunca beynəlxalq miqyasda davamlı dəstəklənən Afrika liderliyində siyasi həllərə ehtiyac olduğunu vurğulayıb.

BMT-nin rəhbəri əlavə olaraq xəbərdarlıq edib ki, inkişaf etməkdə olan ölkələr ildə 4 trilyon dollarlıq Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) maliyyələşdirmə çatışmazlığı ilə üzləşir, Afrika isə yardımdan aldığı vəsaitdən daha çox borc xidməti və qanunsuz maliyyə axınları ucbatından itkiyə məruz qalır.

Quterreş sammitdən sonra keçirilən mətbuat konfransında Afrikanın tamamilə ədalətsiz iqtisadi və maliyyə sistemi ilə mübarizə aparmasını "vicdansızlıq" adlandırıb. O, çoxtərəfli inkişaf banklarının kreditləşmə qabiliyyətini üçqat artırmağa və inkişaf etməkdə olan ölkələrin beynəlxalq maliyyə qurumlarında real səsə və iştiraka malik olmasını təmin etməyə çağırıb.

Baş katib, həmçinin Afrika ölkələrinin təbii sərvətlərindən birbaşa faydalanmalı olduqlarını vurğulayıb: "Artıq istismar yoxdur. Artıq talan yoxdur. Afrika xalqları qitənin sərvətlərindən faydalanmalıdırlar".

O, BMT-nin tövsiyələrinə uyğun olaraq, Afrika ölkələrinin "əsas minerallarından ədalətli, davamlı dəyər zəncirləri və istehsal vasitəsilə ilk və tam şəkildə faydalanmasını" tələb edib.

Quterreş iqlim məsələsində xəbərdarlıq edib ki, "elm birmənalı proqnoz verir - planet 1,5 dərəcə Selsi limitini aşacaq". Paris Sazişində təsbit edilmiş 1,5°C həddi ən fəlakətli və dönməz iqlim təsirlərinin qarşısını almaq üçün vacib hesab olunur. "Afrika iqlim böhranına səbəb olmayıb, lakin orta səviyyədən daha sürətli istiləşmə, quraqlıq, daşqınlar və ölümcül istilərlə üzləşir, iqlim ədalətsizliyi sadə və aydındır", - deyə Baş katib vurğulayıb. O, inkişaf etmiş ölkələri uyğunlaşma maliyyəsini üçqat artırmağa, 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələr üçün hər il 1,3 trilyon dollar səfərbər etməyə, Zərər və İtki Fondunu genişləndirməyə çağırıb.




## Əlcəzair Fransanın müstəmləkə cinayətlərinin araşdırılmasını istəyir

Əlcəzair Fransanın müstəmləkəçilik dövründə törətdiyi cinayətlərin miqyasını təsdiqləyən sənədləri və şahid ifadələrini Afrika hüquqi instansiyalarına təqdim edəcək. Bu barədə ölkə prezidenti Abdelmacid Tebbun açıqlama verib. Bildirilib ki, məqsəd müstəmləkəçiliyin beynəlxalq hüquqda açıq və dəqiq şəkildə təsbit olunmasıdır.

Bəyanat Efiopiyanın paytaxtı Əddis Əbəbə şəhərində keçirilən və Afrika İttifaqının 39-cu sammiti çərçivəsində təşkil olunan "Müstəmləkəçiliyin cinayət kimi tanınması" mövzusunda yüksək səviyyəli iclasın açılışında səsləndirilib.

Prezident vurğulayıb ki, 132 ildən artıq davam edən və son dərəcə qəddar müstəmləkəçiliyi ilə yadda qalan ağrılı milli təcrübəyə əsaslanaraq, Əlcəzair malik olduğu bütün sənəd və etibarlı tarixi sübutları Afrika hüquqi qurumlarına təqdim etməyə tam hazırdır.

Onun sözlərinə görə, bu materiallar Əlcəzair xalqının müqavimətini boğmaq məqsədilə törədilmiş genişmiqyaslı repressiyaları, beynəlxalq hüquqla qadağan olunmuş üsul və vasitələrin tətbiqini, eləcə də ciddi hüquq pozuntularını aydın şəkildə ortaya çıxarır.

Dövlət başçısı ötən il noyabrın 30-da Əlcəzairdə keçirilmiş yüksəksəviyyəli konfransı xatırladaraq, "Əlcəzair çağırışı"nın müddəalarına diqqət çəkib. Həmin sənəddə müstəmləkə cinayətlərinin rəsmi şəkildə tanınması və müstəmləkəçiliyin beynəlxalq hüquq normalarında açıq şəkildə cinayət kimi təsbit olunması üçün ciddi öhdəliklərin götürülməsi nəzərdə tutulur.

Prezident, həmçinin qeyd edib ki, 25 dekabr 2025-ci ildə Əlcəzair Parlamenti tərəfindən ölkənin məruz qaldığı müstəmləkəçiliyi cinayət hesab edən qanun qəbul edilib. Onun sözlərinə görə, bu qanun hüquqi məsuliyyətin müəyyənləşdirilməsinə, milli yaddaşın qorunmasına və ağır cinayətlərin zaman məhdudiyyəti olmadan araşdırılması prinsipinin təsbitinə xidmət edir.

Qanunda məhkəməsiz edamlar, işgəncə, zorakılıq, mülki əhali üzərində nüvə sınaqları və sərvətlərin sistemli talanı kimi əməllər də müddətsiz cinayətlər kateqoriyasına daxil edilib. Bu, beynəlxalq hüququn prinsiplərinə və xalqların həqiqət və ədalət hüququna əsaslanır.

Prezident Abdelmacid Tebbun vurğulayıb ki, azadlıq, ləyaqət və ədalət uğrunda milyonlarla afrikalının verdiyi böyük qurbanlar nə unudula, nə də təhrif oluna bilər.

## Müstəmləkəçiliyi əks etdirən dünyada ilk Virtual Muzey Bakıda...

Fevralın 18-də Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə müstəmləkəçiliyə həsr edilmiş Virtual Muzeyin təqdimatı olub.

Təqdimat mərasimində müstəmləkəçilik irsi ilə bağlı elmi araşdırmalar aparan tədqiqatçılar, alimlər, habelə antropoloqlar iştirak ediblər.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov, antropoloq, "QaraSivilizasiya" Muzeyinin İdarə Heyətinin üzvü və "L'Africaine d'Architecture" platformasının təsisçisi Sename Kofi Aqbodjinu, eləcə də dekolonial tədqiqatlar üzrə multidisiplinar araşdırmaçı, "QaraSivilizasiya" Muzeyinin kuratoru Natali Elizabet Mba Bikoro Virtual Muzey haqqında ətraflı məlumat verərək iştirakçıların suallarını cavablandırıblar.

Qeyd olunub ki, layihənin əsas məqsədi müstəmləkə sisteminin təsirlərinə dair arxiv sənədlərini, foto və videomaterialları, eksponatları və digər vizual mənbələri ictimaiyyətə interaktiv formada təqdim etməkdir.

İngilis və fransız dillərində fəaliyyət göstərəcək muzey müstəmləkəçiliyi və onun müasir təzahürlərini tarixi, hüquqi, iqtisadi, sosial, mədəni və ekoloji aspektlərdə sistemli şəkildə əks etdirən rəqəmsal məlumat bazası olacaq.

Virtual Muzeydə kolonial idarəçilik modelləri, o cümlədən assimilyasiya siyasəti, yerli xalqların adət-ənənələrinə və həyat tərzinə müdaxilələr, mənəvi dəyərlərin və ictimai-mədəni institutların zəiflədilməsi, eləcə də kimlik və irsin sıradan çıxarılmasına yönəlmiş siyasətlər geniş şəkildə izah olunur.

Muzeydə, həmçinin müstəmləkə əleyhinə müqavimət hərəkatları, müstəqillik uğrunda mübarizənin əsas mərhələləri və bu proseslərin insan talelərində əksi yer alır. Qətlə yetirilmiş, zorakılığa məruz qalmış, qanunsuz həbs edilmiş və məcburi köçürülmüş şəxslərin fərdi hekayələri ziyarətçilərə çatdırılır.

Rəqəmsal Muzey müstəmləkəçilik sahəsində araşdırma aparan tarixçilər, politoloqlar, beynəlxalq hüquq üzrə mütəxəssislər və digər tədqiqatçılar üçün etibarlı mənbədir. Eyni zamanda, platforma ali təhsil müəssisələri, media nümayəndələri, vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlar və analitik mərkəzlər üçün açıq resurs kimi nəzərdə tutulur. Layihə dekolonizasiya ilə bağlı qlobal müzakirələrə töhfə verməklə yanaşı, Azərbaycanın bu istiqamətdə fəal mövqeyini nümayiş etdirir.

Bakı Təşəbbüs Qrupu tərəfindən ərsəyə gətirilmiş Virtual Muzey dünyada müstəmləkəçiliyə və onun yeni təzahürlərinə həsr edilmiş ilk virtual platformadır.

Təqdimat zamanı Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov söyləyib ki, keçmiş müstəmləkələrlə bağlı bütün məlumatlar - tarixi faktlar, hüquqi sənədlər və digər məlumat materialları vahid rəqəmsal məlumat bazasında toplanacaq. Gələcəkdə beynəlxalq hüquqşünaslar, mütəxəssislər və ekspertlər bu faktlardan və mənbələrdən səmərəli şəkildə yararlana biləcəklər.

Layihənin əsas strateji əhəmiyyətindən danışan A.Abbasov deyib: "Biz dekolonizasiya prosesinə elmi müstəvidə töhfə vermiş olacağıq. Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları və xüsusi məruzəçiləri də bu platformadan istifadə etmək imkanı əldə edəcəklər. Beləliklə, rəqəmsal muzey həm elmi-tədqiqat, həm də beynəlxalq hüquqi və institusional səviyyədə mühüm istinad mənbəyinə çevriləcək".

Muzey fransız və ingilis dillərində fəaliyyət göstərəcək. Rəqəmsal Muzey müstəmləkəçilik sahəsində aparılan araşdırmalar üçün əhəmiyyətli resursdur. Tarixçilər, politoloqlar və digər tədqiqatçılar üçün elmi mənbə rolunu oynayacaq. Bu istiqamətdə materiallar beynəlxalq hüquq üzrə mütəxəssislər üçün də etibarlı və əhatəli bir mənbəyə çevriləcək.

Virtual Muzeyin məlumatlarının bir hissəsi yerli icmaların nümayəndələri və ekspertlər tərəfindən təqdim olunub. Digər təxminən 60 faizi isə Bakı Təşəbbüs Qrupunun üzvlərinin apardığı araşdırma və təhlillər əsasında formalaşdırılıb.

Növbəti aylarda bu statistikanın dəyişəcəyinə ümidvar olduğunu bildirən A.Abbasov deyib: "Biz yerli xalqlardan, eləcə də müstəmləkəçilik tarixi və dekolonizasiya sahəsində fəaliyyət göstərən müstəqil ekspertlərdən daha çox məlumat əldə edə biləcəyik. Bu platforma geniş əməkdaşlıq imkanları yaradır. Müxtəlif beyin mərkəzləri, beynəlxalq təşkilatlar və digər qlobal institutlarla sıx əməkdaşlıq edərək məlumat bazasını daha da zənginləşdirmək və onun elmi dəyərini artırmaq mümkün olacaq".

Dekolonial tədqiqatlar sahəsində multidisiplinar tədqiqatçı, "QaraSivilizasiya" Muzeyinin kuratoru Natali Elizabet Mba Bikoro müstəmləkəçiliyə həsr olunmuş ilk Virtual Muzeyin təqdimatı zamanı söyləyib ki, muzey yalnız müstəmləkəçilik tarixinin təqdimatı ilə məhdudlaşmır. O, müxtəlif yanaşmaları və baxış bucaqlarını özündə birləşdirən çoxşaxəli bir platformadır. Məhz burada bir daha məlum olur ki, müstəmləkəçilik dövründə güclü dövlətlər yerli xalqlara qarşı necə davranıb, onların resurslarını necə istismar edib və sosial-mədəni strukturlarına necə təsir göstəriblər.

"Gələcəkdə isə bu platforma zərər çəkmiş və təcrübə yaşamış yerli xalqların hüquqlarının müdafiəsi və onların beynəlxalq səviyyədə tanıdılması istiqamətində də mühüm rol oynayacaq", - deyə Natali Elizabet Mba Bikoro vurğulayıb.

*Mübariz FEYİZLİ*

# İsveçrədə...

## Cenevrə görüşləri başa çatdı...

### Nəticə olmasa da, irəliləyiş var...

Fevralın 17-də və 18-də Cenevrədə ABŞ, Rusiya və Ukrayna nümayəndə heyətləri arasında danışıqlar davam etdirilib. Danışıqlar Cenevrədə InterContinental Oteldə reallaşıb. Beynəlxalq KİV-in məlumatına görə nümayəndə heyətlərinin iştirakı ilə baş tutan görüşlər qapalı qapılar arxasında keçirilib.

### Nümayəndə heyətlərinin tərkibi dəyişdi

Qeyd edək ki, görüşdə Rusiya nümayəndə heyətinə Rusiya prezidentinin köməkçisi Vladimir Medinski rəhbərlik edib. Xatırladaq ki, Medinski Rusiyanı 2022-ci il danışıqlarında və 2025-ci il İstanbul görüşlərində təmsil etmişdi, lakin Əbu-Dabidəki görüşlərdə iştirak etməmişdi. Nümayəndə heyətində həmçinin xarici işlər nazirinin müavini Mixail Qaluzin və BƏƏ-dəki danışıqlarda Rusiyanı təmsil edən Baş Qərargahın Baş İdarəsinin (QRU) rəisi, admiral İqor Kostyukov da təmsil olunub. Məlumata görə, Rusiya prezidentinin xüsusi elçisi Kirill Dmitriyev də Cenevrəyə gəlib. Kremlin məlumatına görə, o, iqtisadi məsələlər üzrə Rusiya-Amerika qrupunun tərkibində ayrıca danışıqlar aparır.

Ukraynanı isə prezident Vladimir Zelenskinin ofisinin rəhbəri Kiril Budanov, onun müavini Sergey Kıslıtsya, Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, Baş Kəşfiyyat İdarəsinin rəis müavini Vadim Skibitski, Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Andrey Qnatov və hakim partiyanın fraksiyasının rəhbəri David Araxamiya təmsil edib.

ABŞ tərəfdən görüşdə Prezidentin xüsusi elçisi Stiv Vitkoff və Cared Kuşner nümayəndə kimi iştirak edib.

### Avropa "qapı arxasında" qaldı...

Qeyd edək ki, budəfəki görüşlər raundunda Avropa da təmsil olunmaq arzusunu irəli sürüb. Böyük Britaniya, Almaniya, Fransa və İtaliya nümayəndələri danışıqları müşahidə etsələr də, İsveçrə də daxil olmaqla Avropa ölkələri danışıqlarda iştirakçı kimi qeyd olunmayıb. AFP mənbələri xəbər yayıb ki, danışıqlarda Almaniya kansleri Fridrix Merts də daxil olmaqla, Aİ liderlərinin müşavirləri iştirak ediblər. Ukrayna nümayəndə heyətinin rəhbəri Rüstəm Umerov Fransa, Birləşmiş Krallıq, Almaniya, İtaliya və İsveçrə nümayəndələri ilə ayrıca görüşdüyünü açıqlayıb.



### Ərazi məsələsində razılıq əldə edilmir

Görüşdən öncə Kreml bildirmişdi ki, təhlükəsizlik məsələlərinin müzakirə olunduğu BƏƏ-dən fərqli olaraq, İsveçrədə daha geniş mövzular, o cümlədən ərazilərlə bağlı əsas məsələlər və tələblər müzakirə olunacaq. KİV Cenevrədə hərbi, siyasi və humanitar məsələlərin, Zaporojye Atom Elektrik Stansiyasının və enerji atəşkəsinin müzakirə olunacağını da yaymışdılar.

Ukrayna isə hərbi əməliyyatların bitməsindən sonra Kiyev üçün təminatlara diqqət yetirmək niyyətini irəli sürüb. Prezident Zelenski bildirib ki, təhlükəsizlik zəmanətləri və iqtisadi bərpa məsələsində irəliləyiş olması vacibdir. Umerov bildirmişdi ki, Kiyev enerji obyektlərinə zərbələrin dayandırılması məsələsini qaldırmağı planlaşdırır. O deyib ki, ABŞ münaqişənin yayın əvvəlinə qədər bitməsini gözləyir. ABŞ Dövlət katibi Marko Rubio isə bildirmişdi ki, ABŞ hər iki tərəfi bu müharibəyə danışıqlar yolu ilə son qoymaq imkanını müzakirə etməyə məcbur edə biləcək yeganə ölkədir.

Cenevrədə danışıqların ilk günündən sonra "Axios"a verdiyi müsahibədə Ukrayna Prezidenti Vladimir Zelenski Kiyev və Vaşinqtonun qəbul olunacaq sülh müqaviləsini Ukraynada referendumа təqdim etmək barədə razılığa gəldiyini bildirib. Ukrayna Prezidenti ölkəsinin digər şərtlərini də açıqlayıb. O həmçinin bildirib ki, ərazi məsələsinin həllində irəliləyiş əldə etməyin ən yaxşı yolu Putinlə görüşməsidir. Zelenskinin sözlərinə görə, o, danışıqlar qrupuna iki lider arasında Cenevrədə görüş məsələsini qaldırmağı da tapşırıb.

Qeyd edək ki, bir müddət əvvəl Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Putinlə Zelenski arasında görüşün yalnız Moskvada baş tutmasının mümkün olduğunu bildirmişdi. Ukrayna lideri isə Rusiya və Belarus istisna olmaqla, istənilən ölkədə Putinlə görüşməyə hazır olduğunu demişdi.

### Danışıqlar dalana dirəndi...

Bu görüşə qədər Əbu-Dabidə tərəflər arasında 2 raundluq görüş baş tutmuşdu. Həm yanvar, həm də fevral ayına təsadüf edən bu görüşlər real nəticə ilə yekunlaşmasa da, Əbu-Dabidə baş tutan son görüşdə "157-yə 157" formuluna uyğun olaraq əsirlərin dəyişdirilməsi reallaşmışdı. Cenevrədə baş tutan görüşün ilk günündə danışıqlar prosesi təxminən 4 saatdan artıq çəkib. Prosesdə İsveçrənin xarici işlər naziri İqnazio Kassis də iştirak edib. Rusiya Xarici İşlər Nazirliyi öncədən yaydığı məlumatda bildirib ki, iştirakçılar "hər hansı bir sızmanın qarşısını almaq üçün səssiz işləməyə" razılaşıblar. Məlumata görə, görüş həm ikitərəfli, həm də üçtərəfli formatda baş tutub. İnformasiya agentliklərinin yaydığına görə, dialoq Rusiya-Amerika, Rusiya-Ukrayna və Rusiya-Amerika-Ukrayna danışıqları formatında və olduqca gərgin keçib. "Axios" xəbər verir ki, ilk gün siyasi qrupun danışıqları Rusiya nümayəndə heyətinin təqdim etdiyi mövqelərə görə "dalana dirənib". Bu arada, ABŞ-ın xüsusi nümayəndəsi Stiv Vitkoff Vaşinqtonun səyləri nəticəsində əldə edilən əhəmiyyətli irəliləyiş haqqında danışıb. O, Rusiya və Ukrayna nümayəndə heyətlərinin müvafiq liderlərinə məlumat vermək və razılaşma üzərində işləməyə davam etmək barədə razılığa gəldiyini bildirib.

### İkinci gün iki saat...

Vurğulandığı kimi, görüş fevralın 18-də davam etdirilib. Görüşdən əvvəl yayılan məlumatlarda bildirilib ki, dünən məsələlər 2 istiqamətdə - hərbi və siyasi işçi qruplarında davam etdirilib. Müzakirələ davam etdirilsə də, real nəticələrin əldə olunması gözlənilmir. "Politico"nun məlumatına görə, tərəflər atəşkəsin necə qurulacağı və atəşkəsdən sonra silahsızlaşdırılmış zonanın necə görünə biləceyi barədə razılığa gəlsələr də, ərazi məsələsində razılıq əldə edilə bilmir. Rusiya Ukrayna Silahlı Qüvvələrinin Donbasdan tam çıxmasını tələb edir, Ukrayna isə bu tələbi rədd edir və prosesi hazırkı təmas xəttindən irəlilətməyi təklif edir.

Dünənki görüşdən sonra jurnalistlər qarşısına çıxan Rusiya nümayəndə heyətinin rəhbəri və prezidentin köməkçisi Vladimir Medinski deyib ki, danışıqlar çətin, lakin işgüzar keçdi və bu görüş təxminən 2 saat davam edib. "Bildiyiniz kimi, danışıqlar iki gün davam etdi: dünən (fevralın 17-də) çox uzun müddət, müxtəlif formatlarda, sonra isə bu gün təxminən iki saat. Çətin, lakin işgüzar görüşlər idi", - deyə Medinski bildirib. O həmçinin, Ukrayna ilə bağlı tezliklə yeni görüşün keçiriləcəyini qeyd edib.

**P.İSMAYILOV**

## ABŞ-İran danışıqlarının "Cenevrə mərhələsi"

### Qarşılıqlı razılaşmaya dair sənədin mətni üzərində işə başlanacaq

Cenevrədə ABŞ və İranın uzun müddətdir davam edən nüvə mübahisəsinin həllinə dair növbəti danışıqları baş tutub. Omanın Cenevrədəki diplomatik nümayəndəliyində keçirilən görüşdə ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff və Cared Kuşner iştirak ediblər. İranı isə xarici işlər naziri Abbas Əraqçi, siyasi işlər üzrə nazir müavini Məcid Təxt-Rəvançi, hüquqi və beynəlxalq işlər üzrə nazir müavini Kazem Qəribabadi, iqtisadi diplomatiya üzrə nazir müavini Həmid Qənbəri, eləcə də texniki, hüquqi və iqtisadi məsələlər üzrə mütəxəssislər təmsil edib.

### Hörmüz boğazında təlimlər İranın ABŞ-a cavabıdır?

Görüşdən əvvəl ABŞ Prezidenti Donald Tramp Cenevrə danışıqlarında "dolayı yolla" iştirak edəcəyini və Tehranın razılaşma istədiyinə inandığını bildirib. Tramp bazar ertəsi günü jurnalistlərə demişdi: "Düşünmürəm ki, onlar bunu etməməyin nəticələrinə qatlana bilsinlər". "Reuters" agentliyi isə Vaşinqton rəsmilərinə istinadla yazıb ki, ABŞ ordusu İrana qarşı həftələrlə davam edəcək əməliyyatlara hazırlaşır.

Belə bir şəraitdə fevralın 16-da İran Hörmüz boğazında hərbi təlim keçirib. Bu, mühüm beynəlxalq su yolu münaqişənin diplomatik həllinə çağıran Körfəzin ərəb dövlətləri üçün neft ixracı marşrutudur. Bu şəraitdə Asiya ticarətində "Brent" markalı neftin qiyməti düşüb, çünki investorlar ABŞ ilə nüvə danışıqlarından əvvəl İranın dəniz təlimlərindən sonra təchizatda fasilələr riskini qiymətləndiriblər. İranın yüksəkrütbəli dəniz komandanı Əlirza Təngsiri bildirib ki, İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) Hörmüz boğazı üzərində "tam 24 saatlıq kəşfiyyat dominantlığını" qoruyub saxlayır. İranın dövlət mediası Təngsiriyə istinadla məlumat yaymışdı ki, İİKK Hərbi Dəniz Qüvvələrinin Hörmüz boğazındakı nəzarəti yerüstü, hava və hətta yeraltı səviyyələrdə həyata keçirilir. Onun sözlərinə görə, bu kəşfiyyat məlumatları boğazdan gəmilərin təhlükəsiz keçidini təmin edir. Kontr-admiral əlavə edib ki, dəniz ticarətinin əhəmiyyətli bir hissəsini təşkil edən bu boğazdan hər gün 80-dən çox neft tankeri və konteyner gəmisi keçir. Bu təlim ABŞ-ın Yaxın Şərqə ikinci hərbi gəmi göndərməsi fonunda baş tutub.

ABŞ-la danışıqlardan əvvəl isə İranın xarici işlər naziri Abbas Araqçi Cenevrədə Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) rəhbəri Rafael Qrossi ilə görüşüb. Görüşdən sonra "X" sosial media platformasında yazan Qrossi bildirib ki, İranın yüksəkvəzifəli diplomatı ilə dərin texniki müzakirələr aparıb. İran tərəfi isə bəyan edib ki, danışıqlar İran-BAEA əməkdaşlığının davam etdirilməsi, zənginləşdirmə proqramı və 400 kq zənginləşdirilmiş uranın taleyi üzərində qurulub. "Tasnim" agentliyinin məlumatına görə, Araqçi ilə Qrossi arasında keçirilən görüşlə nüvə danışıqları prosesi rəsmi olaraq bərpa edilib. Bundan başqa, Cenevrə danışıqlarında İran nümayəndə heyətinə iqtisadi, hüquqi və texniki mütəxəssislər cəlb olunub ki, bu da İranın yanaşmasının müsbət nəticəyə yönəldiyini göstərir.



### Cenevrə görüşü daha konstruktiv atmosferdə keçirilib

Vaşinqton danışıqlara ballistik raket məsələlərinin daxil edilməsini istəsə də, Tehran sanksiyaların aradan qaldırılması müqabilində yalnız nüvə proqramına qoyulan məhdudiyyətləri müzakirə etməyə hazır olduğunu, uranın zənginləşdirilməsindən tamamilə imtina etməyəcəyini və ya raket proqramının müzakirə mövzusu olmadığını bəyan edib.

İran dövlət televiziyası da Cenevrədə keçirilən İran-ABŞ danışıqlarında diqqətin Tehranın nüvə proqramına yönəldiyi barədə məlumat yayıb. Bildirilib ki, danışıqlarda İrana qarşı sanksiyaların aradan qaldırılması məsələsi də müzakirə olunub. Məlumata görə, İran diplomatları Vaşinqtonun məhdudlaşdırılmasını tələb etdiyi uran zənginləşdirmə proqramını saxlamaqda israr ediblər.

İranın Xarici İşlər Nazirliyinin "X" hesabında isə yazılıb ki, əvvəlki mərhələ ilə müqayisədə bu görüş tamamilə ciddi müzakirələri əhatə edib və daha konstruktiv atmosferdə keçirilib. Bildirilib ki, İranın XİN rəhbəri Abbas Əraqçi müxtəlif ideyaların irəli sürüldüyünü və hərtərəfli araşdırma aparıldığını deyib. Əraqçi qeyd edib ki, potensial razılaşmanın mətninin hazırlanmasına başlamaq üçün rəhbər prinsiplər üzrə ümumi razılıq əldə olunub. "Bu, o demək deyil ki, razılaşma tez bağlanacaq, lakin ən azından proses başlayıb. Mətnin hazırlanması işi daha mürəkkəb olur" , - deyə Əraqçi vurğulayıb. Onun sözlərinə görə, konkret vaxt cədvəli müəyyən edilməyib: "Tərəflər potensial razılaşmanın layihə mətnləri üzərində işləyib, onları mübadilə edəcəklər. Sonra üçüncü raund üçün tarix müəyyənləşdiriləcək".

### ABŞ Prezidentinin masasında bütün variantlar var

ABŞ Dövlət katibi Marko Rubio İranla razılığa gəlməyin asan olmayacağını, lakin Vaşinqtonun buna nail olmaq üçün səylərini əsirgəməyəcəyini bildirib. ABŞ-ın vitse-prezidenti Cey. Di. Vens isə "Fox News"a verdiyi müsahibədə deyib ki, Vaşinqton Yaxın Şərqdə nüvə silahlarının yayılmasının qarşısını almağı prioritet hesab edir, çünki İranın nüvə silahı əldə etməsi regionda nəzarətsiz silahlanma yarışına səbəb olacaq. Vitse-prezident qeyd edib: "Amerika Birləşmiş Ştatlarının müəyyən qırmızı xətləri var. Burada əsas marağımız İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır. Biz nüvə silahının yayılmasını istəmirik. Əgər İran nüvə silahı əldə edərsə, onlardan sonra nüvə silahı əldə etmək istəyən çoxsaylı digər rejimlər - bəziləri dost, bəziləri isə o qədər də dost olmayan rejimlər - olacaq. Bu, Amerika xalqı üçün fəlakət olardı".

"İndi Prezidentin dediyi kimi, bunu söhbət və diplomatik danışıqlar yolu ilə həll etməyi çox istərdik. Amma Prezidentin masasında bütün variantlar var", - deyən Vens Cenevrə danışıqlarının yaxşı keçdiyini, tərəflərin növbəti görüşə razılıq verdiyini bildirib.

Cenevrə danışıqlarından sonra İran Prezidenti Məsud Pezeşkian isə bəyan edib ki, danışıqların məqsədi problemləri həll etməkdir. Onun sözlərinə görə, hökumətin interaktiv yanaşması sayəsində qarşıdurma əvəzinə, əməkdaşlıq və qarşılıqlı anlaşma yolu seçilib. Rəsmi Tehran tibb, kənd təsərrüfatı və sənayedə dinc məqsədlərlə həyata keçirilən nüvə proqramından imtina etməyəcək. "Daha hansı dildə deyək ki, məqsədimiz nüvə silahına sahib olmaq deyil?! Çünki nüvə silahının qadağası ilə bağlı ali rəhbərin (Əli Xamenei - red.) də fətvası var", - deyə Pezeşkian qeyd edib. O, nüvə silahı ilə bağlı istənilən yoxlamaya hazır olduqlarını vurğulayıb.

**N.BAYRAMLI**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







## Ramazan ayı 1-ci günün duası

**Allahumməc-əl siyami fihi siyaməs-saiminə və qiyami fihi qiyaməl-qaimin. Və nəbbihni fihi ən növmətil-ğafilin. Vəhəb li cürmi fihi ya ilahəl-aləmin. Və-fu ənni ya afiyən ənil-mücrimin.**

**Tərcüməsi:**

**İlahi, bu ayda tutduğum orucu həqiqi oruc tutanların orucundan, gecələr oyaq qalmaqla etdiyim ibadətləri əsil gecə ibadətçilərinin ibadətindən qərar ver. Məni bu ayda qafillərin getdiyi yuxudan uzaq et. Bu ayda günahlarımdan keç, ey aləmlərin tanrısı. Məni bağışla, ey günahkarları bağışlayan!**

# Ruhun yeniləndiyi ay...

## Ramazanın ilk günüdür

Hər il İslam aləmi Ramazan ayını böyük bir səbirsizliklə gözləyir. Bu ay, təkcə oruc tutmaqla məhdudlaşmayan, həm də ruhun, vicdanın və qəlbin yenilənməsi üçün bir fürsətdir. Ramazan, insanları bir-birinə yaxınlaşdıran, mərhəməti, səbr və paylaşmağı öyrədən müqəddəs bir dövrdür.

Müqəddəsliyi və fəziləti Quran ilə təsbit edilən Ramazan ayı həmçinin 11 ayın sultanı kimi qəbul edilir. Bərəkət və əfvlə dolu, ictimai həyatda sosial yardım və həmrəyliyin gücləndiyi, ibadət həyatımızın zənginləşdiyi Ramazan ayının əvvəli rəhmət, ortaları bağışlanma, sonu cəhənnəmdən qurtuluşdur.

### Oruc tutanlar nələrə diqqət etməlidir?

Bu ay həm də paylaşma, yardımlaşma və birlik ayıdır. Zəkat və fitrə vermək, ehtiyacı olanlara əl uzatmaq, insanı həm cəmiyyətdə, həm də öz daxilində möhkəm bağlarla birləşdirir. Ramazan boyunca qəlblər bir-birinə yaxınlaşır, insanlar arasında hörmət və səmimiyyət artır.

Bu gün - fevralın 19-u Ramazan ayının ilk günüdür. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) məlumatına görə, bu il Qədr gecələri 8, 10, 12 və 16 mart tarixlərinə təsadüf edəcək. Ramazan bayramı isə martın 20-də qeyd olunacaq.

İslamın 5 şərtindən biri olan və möminləri mənəvi cəhətdən təmizləyən oruc da bu ayda tutulur. Deyilənə görə, Ramazan ayında cənnət qapıları açılır, cəhənnəmin qapıları bağlanır, şeytanlar zəncirlənir...

### Əvəzsiz müalicə üsulu...

Oruc tutmaq orqanizmin sağlamlığı deməkdir. Mütəxəssislər də bəzi xroniki xəstəliklərin orucla müalicə edildiyi qənaətindədirlər. Oruc, eyni zamanda, bağırsaq xəstəliklərinin dərmanı olduğu kimi, bəzi dəri xəstəliklərinin sağaldılması, mədənin müəyyən müddət ərzində istirahət etməsində də əvəzsiz müalicə üsuludur. Obez xəstələrinə oruc tutmaları xüsusilə tövsiyə edilir. Çünkin obez olan şəxslər Ramazanda oruc vasitəsiylə özlərinə yemək yemə mövzusunda nəzarətetmə fürsəti tapa bilərlər. İşi, sağlamlığı ilə bağlı qayğıları olmayan insanın oruc tutması mütləqdir.



### Oruc tutmaq bu insanlar üçün risklidir...

Oruc bu gün də öz əhəmiyyətini qoruyur və aktuallığını itirməyib. Lakin Ramazan ayında oruc tutmaq bəzi insanlar üçün riskli hesab olunur. Məsələn, hamilələr, uşaq əmizdirən analar, şəkər xəstələri, ürək-damar sistemi ilə bağlı xəstəliyi olanlar, xroniki xəstəliklərdən əziyyət çəkənlər, ciddi psixoloji problemləri olanlar, yetkinlik yaşına çatmayan uşaqlar və kimyəvi terapiyaya müraciət edən xərçəng xəstələrinin oruc tutması məsləhət görülmür.

Həddi buluğa çatmayan uşaqların oruc tutması vacib deyil. Qızların 9 yaşından başlayaraq oruc tutmağa imkanı varsa, riayət edə bilərlər. Oğlanlara isə 15 yaşından etibarən sağlamlıqları, orqanizmi imkan verirsə, əməl etsinlər. Bu yaşdan kiçiklərə oruc vacib deyil.

### Orucu pozan əməllər...

Ramazan ayında günah hesab olunan əməllər, digər aylarda da günah sayılan əməllərlə eynidir. Ancaq bu ayda həmin əməllərə yol verilməsi orucun müqəddəsliyi səbəbindən ikiqat günah sayılır.

Yalan, böhtan və yalan danışmaq: Ramazan ayında sözlərimiz daha diqqətli olmalıdır. Yalan danışmaq, başqasını aldatmaq, böhtan atmaq, ədalətsiz davranmaq böyük günahlardandır.

Hirs və pis davranış: İnsanlara qarşı aqressiv, əsəbi və ya hörmətsiz olmaq orucun ruhuna ziddir. Peyğəmbərimiz (s) buyurur ki, oruc yalnız aclıqdan ibarət deyil, pis söz və davranışdan da çəkinməkdir.

Qadağan edilmiş əməllər sırasında oğurluq və digər haram əməllər də var. Eyni zamanda dini ibadətlərdə tənbəllik də orucun ruhuna ziddir. Deyilənə görə, Ramazanda dua və zikrdən uzaq qalmaq da mənəvi günah hesab olunur.

*Yeganə BAYRAMOVA*

# Azercell-in dəstəyi ilə fəaliyyət göstərən “Uşaq Qaynar Xətti”nə 2025-ci ildə 5500-dən çox müraciət daxil olub

Azercell-in dəstəyi ilə fəaliyyət göstərən “Azərbaycan Uşaq Qaynar Xətt Xidməti” ötən il ərzində uşaqların müdafiəsi və rifahının təmin olunması istiqamətində fəaliyyətini davam etdirib. 2025-ci ildə qaynar xəttə ümumilikdə 5520 müraciət daxil olub.

Müraciətlər xidmət tərəfindən sistemli şəkildə təhlil edilib, risklərin vaxtında müəyyən olunması və qarşısının alınması məqsədilə erkən müdaxilə mexanizmləri işə salınıb. Bu çərçivədə 127 ailəyə birbaşa səfər təşkil edilib, hər bir hal üzrə sosial qiymətləndirmə aparılıb, onlayn konsultasiyalar və ödənişsiz hüquqi dəstək təmin olunub.

Həmçinin, fərdi hallar üzrə uşaqlarla ayrıca görüşlər təşkil edilib, dövlət qurumları ilə multidissiplinar əməkdaşlıq çərçivəsində koordinasiyalı iş aparılıb, qrup terapiyaları həyata keçirilib. Ümumilikdə, görülən tədbirlər konkret müraciətlərin həlli ilə yanaşı, uşaqlar, valideynlər və cəmiyyət arasında məlumatlılığın artırılmasına, təhlükəsiz mühitin təşviqinə və qaynar xəttin əlçatanlığının genişləndirilməsinə xidmət edib.

Müraciətlərin təsnifatına gəldikdə, onların əhəmiyyətli hissəsi uşaqların psixoloji və sosial rifahı ilə bağlı olub. 1605 müraciət psixoloji problemlər, 823 müraciət sosial məsələlər, 808-i isə zorakılıq halları ilə əlaqəli olub. Qeyd edək ki, zorakılıqla bağlı müraciətlərin əsas hissəsini məişət zorakılığı təşkil etsə də, kiberzorakılıqla bağlı 120, qısnama (bullinq) ilə bağlı 53 müraciət qeydə alınıb.

2025-ci il ərzində uşaqların istismarı və həssas vəziyyətindən sui-istifadə hallarına dair ümumilikdə 165 müraciət qeydə alınıb. Bunların 60-ı erkən nikah, 54-ü təhlükəli ailə mühitini tərk etmə, 44-ü dilənməyə məcbur edilmə, 7-si isə əməyin istismarı hallarını əhatə edib.

Bundan əlavə, sosial sahə üzrə müraciətlərdən 168-i sığınacaqla təmin olunma, 76-sı isə intihar düşüncələri və təşəbbüs cəhdləri üzrə qeydə alınıb ki, bu da psixoloji dəstəyə olan ehtiyacın aktuallığını göstərir.




Hüquqi yardım üzrə 730, təhsil sahəsi üzrə 302, səhiyyə hüququ üzrə isə 56 müraciət daxil olub. Digər müraciətlər isə ümumi xarakterli suallar və xidmət barədə məlumat sorğularını əhatə edib.

Statistik göstəricilərə əsasən daxil olan müraciətlərin 2995-i qadın, 1541-i kişi tərəfindən, 984-ü isə anonim şəkildə edilib. Yaş bölgüsünə gəldikdə, ümumilikdə 2025-ci ildə qeydə alınan müraciətlərin 3754-ü 15-18 yaş, 1324-ü 11-14 yaş, 442-si isə 10 yaşa qədər olan uşaqlarla bağlı olub.

“Uşaq Qaynar Xətti”nin fəaliyyəti yalnız müraciətlərin cavablandırılması ilə məhdudlaşmayıb. Qaynar xətt 2025-ci il ərzində məktəblərdə və onlayn platformalarda maarifləndirmə kampaniyaları da təşkil edib.

2010-cu ildən fəaliyyət göstərən qaynar xətt xüsusi qayğıya ehtiyacı olan bütün uşaqlar və onların problemləri ilə bağlı müraciət edən şəxslər üçün nəzərdə tutulub. Xidmət çətin vəziyyətə düşmüş uşaqlara dəstək göstərməyi hədəfləyir. Dəstək Xəttin əsas prinsipi məxfiliyin qorunmasıdır. Daxil olan məlumatlar yalnız zəruri hallarda və müraciət edənin razılığı ilə aidiyyəti qurumlara ötürülür.

Hazırda 116111 qısa nömrəsi, mobil nömrələr, elektron poçt, rəsmi internet səhifəsi, sosial şəbəkələr və mobil tətbiqlər vasitəsilə xidmət göstərən “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinə ümumilikdə 81000-dən çox müraciət daxil olub. Xidmət “Azercell Telekom” MMC, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən həyata keçirilir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4851**
**Sifariş: 246**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova